# Media Reyestri və elektron köşk platforması fəaliyyətə başlayacaq



**Azərbaycanda media sahəsində həyata keçirilən islahatlar və yeni hədəflər barədə müzakirələr aparılır.**

Bunu jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, gələcəkdə istifadəyə veriləcək Media Reyestri və elektron köşk platformalarının da MEDİA-nın yeni saytına qoşulması gözlənilir: "Yaxın gələcəkdə Media Reyestri və elektron köşk platforması fəaliyyətə başlayacaq. Onların da təqdimatı keçiriləcək".



## Rusiyanın ehtiyatları bir həftəyə 7,4 milyard azaldı

**Rusiyanın beynəlxalq ehtiyatları azalıb.**

İyulun 15-nə olan məlumata görə, qonşu ölkənin ehtiyatları 565,3 milyard ABŞ dollar təşkil edib ki, bu da bir həftəyə 1,3 faiz və ya 7,4 milyard ABŞ dolları azalma deməkdir.

*Qeyd edək ki, 8 iyulda beynəlxalq ehtiyatlar 572,7 milyard ABŞ dolları həcmində olub*


№ 127 (5649), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 iyul 2022-ci il (cümə)





# Türkiyə YAŞATdı

## Qazimiz müalicə olunaraq Vətənə qayıdıb

**"YAŞAT" fondu tərəfindən Türkiyəyə göndərilən və burada müalicə alan daha bir Vətən müharibəsi qazisi evinə qayıdıb.**

Qazimiz xərəkdə yola salındığı Türkiyədən evinə ayaqları üstündə qayıdıb.

"Müalicəyə yola salınanda ağrılarına, vəziyyətinin ağırlığına baxmadan yalnız gülümsəyirdi. Bu gülümsəmənin ardında möhkəm iradə, böyük inam və ümidlər var idi. Budur, Nurlan Tağıyev xərəkdə yola salındığı Türkiyədən vətənə ayaqları üstündə qayıdıb", - məlumatda deyilir.

Qazimiz 17 il Xüsusi Təyinatlı Qüvvələrin sırasında xidmət edib, Aprel döyüşləri və Vətən müharibəsində böyük şücaət göstərib.

## Azərbaycan Ordusunda fərarilik faktı qeydə alınmayıb

Bu haqda hərbi prokuror Xanlar Vəliyev məlumat verib



**Azərbaycan Silahlı Qüvvələrində fərarilik faktı qeydə alınmayıb. Bunu Respublika Hərbi Prokurorluğunda keçirilən kollegiya iclasında Baş prokurorun müavini, Respublika Hərbi prokuroru Xanlar Vəliyev deyib.**

O bildirib ki, bu ilin 6 ayı ərzində qeydə alınmış bəzi qəbildən olan cinayətlər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə azalıb.

"Belə ki, 2021-ci ilin birinci yarımili ilə müqayisədə 2022-ci ilin birinci yarısında qeydə alınmış özünü öldürmə həddinə çatdırma cinayətləri 30 faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 88,9 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 14,3 faiz, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 40 faiz və xuliqanlıq cinayətləri 25 faiz azalıb. Ötən ilin eyni dövrü ilə müqayisədə şəxsi heyətin itkilərinin sayı da ümumilikdə əhəmiyyətli dərəcədə azalıb. Vurğulanıb ki, sözügedən dövrdə fərarilik və qəsdən sağlamlığa ağır zərərvurma cinayətləri törədilməyib", - X.Vəliyev deyib.

# Zaman daralır

## Erməni silahlılar ərazilərimizdən yaxın günlərdə çıxarılmazsa, rəsmi İrəvan bunun bədəlini çox ağır şəkildə ödəməli olacaq



**İyulun 19-da Ermənistan Silahlı Qüvvələrinin bölmələri Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində döyüş mövqelərinin yaradılması məqsədilə mühəndis-texniki və tikinti işlərinə başlayıb.**

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Ermənistanın kapitulyasiyası ilə bağlı Moskva sazişinə zidd olan bu qanunsuz fəaliyyətin qarşısını almaq üçün xəbərdarlıq atəşi açıblar. Bütün zəruri qabaqlayıcı tədbirlər görülüb. Həmçinin Rusiya sülhməramlıları kontingentinin komandanlığı məlumatlandırılıb. Bir saat sonra hadisə yerinə sülhməramlıların şəxsi heyət qrupu gəlib.

(səh.3)

## Karantin qaydaları əsla sərtləşməyəcək

Koronavirusun pandemiyaya çevrilmək ehtimalı sıfırdır



**Aylar öncə yoluxma sayının kəskin azalması səbəbindən pandemiyanın başa çatdığı zənn edilsə də, koronavirus təhlükəsi yenidən bütün ölkələri narahat etməyə başlayıb.**

Yoluxma hallarının artması bir çox ölkələri əks-tədbirlər görməyə vadar edir. Artıq bəzi yerlərdə yenidən məhdudiyyətlərin tətbiq edilməsinə qərar verilib.

(səh.5)

# Qərb də böhran içindədir, Rusiya da...

## Hələ mütləq qalibdən və məğlubdan danışmaq tezdir



ABŞ-ın dövlət katibi Entoni Blinken Rusiyanın Ukrayna savaşında artıq məğlub olduğuna əmindir. Onun fikrincə, bundan sonrakı mərhələdə yalnız Rusiyanın öz məğlubiyyətini etiraf edərək, kapitulyasiya aktını imzalamasına nail olunması əsas hədəfə çevrilməlidir.

(səh.5)



## İşğaldan azad edilən ərazilərimizə böyük qayıdışın növbəti köçü baş tutub

**İşğaldan azad edilən ərazilərimizə böyük qayıdışın növbəti köçü baş tutub.**

"Report"un Qarabağ bürosu xəbər verir ki, Zəngilanın Ağalı kəndindən olan daha 10 ailə (48 nəfər) bu gün öz doğma torpaqlarına köçürülüb. Sakinləri Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev qarşılayıb.

Sakinlərə doğma ocaqlarına qayıtmaları münasibətilə göz aydınlığı verilib. Onların yaşayışı üçün kənddə hər cür şəraitin yaradıldığı bildirilib.

## 2 nəfəri vəfat edib

Yoluxanların sayı 300-ü keçdi




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 305 yeni yoluxma faktı qeydə alınıb, 175 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 795 495 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 784 356 nəfər müalicə olunaraq sağalıb, 9 729 nəfər vəfat edib, aktiv xəstə sayı 1 410 nəfərdir.

## Dənizdə batan bacılardan ikincisinin də meyiti tapılıb



**Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində qeyri-çimərlik ərazidə batmış 2008-ci il təvəllüdlü Aysun Asəf qızı Abdulzadənin meyiti tapılıb.**

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, A.Abdulzadənin meyiti FHN Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən bu gün səhər saatlarında batdığı yerdən təxminən 11 km aralıda dənizdə tapılaraq aidiyyəti üzrə təhvil verilib.

Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək bildirir ki, qeyri-çimərlik ərazilərdə çimmək, habelə küləkli hava şəraitində dənizə girmək həyat üçün təhlükəlidir.

*Qeyd edək ki, dünən Xəzər dənizinin Kürdəxanı qəsəbəsi hissəsində 17 və 14 yaşlı iki bacı - Aysel və Aysun Abdullazadələr boğulub. Ayselin meyiti dünən dənizdən çıxarılıb.*



## "2025-ci ildə Rusiya sülhməramlıları Qarabağdan çəkiləcək"

"Rusun hiyləsi, nəzarət mexanizmi olsa da, hər halda vəziyyət, şərait, qüvvələr nisbəti dəyişib"

(səh.4)



## "Ümummilli qəzetlərə ehtiyacımız var"

"Mətbuat xaotik vəziyyətdən aydın mənzərəyə doğru keçid etməkdədir"

(səh.5)



# Prezident Bolqarıstanın baş naziri ilə təkbətək görüş keçirdi

## İlham Əliyev: “Şadam ki, biz enerji sahəsində aramızda iş birliyini qurmuşuq”

## Kiril Petkov: “Azərbaycan Avropa İttifaqının üzvü olan Bolqarıstana arxalana bilər”

**“Şadam ki, biz Bolqarıstanla enerji sahəsində iş birliyi qurmuşuq. Bolqarıstan ilə Azərbaycan strateji tərəfdaşdırlar. Biz nisbətən yaxın vaxtda müvafiq Bəyannaməni imzalamışıq”.**

Bunu iyulun 21-də Prezident İlham Əliyev Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə təkbətək görüşdə deyib. Dövlət başçısı bildirib ki, bu, olduqca yüksək səviyyəli əməkdaşlıqdır: ”Əlbəttə, strateji əməkdaşlıq bir çox sahələri, o cümlədən enerji təhlükəsizliyini əhatə edir. Bu mövzu hazırda qlobal gündəliyin ən üstün mövzularından biridir. Bu və digər məsələlər bu gün müzakirə olunacaq. Şadam ki, biz enerji sahəsində aramızda iş birliyini qurmuşuq. Bolqarıstana Cənub Qaz Dəhlizi üzrə artıq birbaşa xətt gedir. Bu, təbii ki, gələcəkdə böyük potensialı olacaq uzunmüddətli əməkdaşlıqdır. Lakin nəinki enerji, o cümlədən ticarət, sərmayələr, birgə müəssisələrin yaradılması, turizm kimi digər sahələr də var. Dostlar arasında müzakirə olunacaq sahələr çoxdur. Ölkələrimiz dost ölkələrdir. Əminəm ki, bu dostluq gələcəkdə güclənəcək”.

**“Yalnız bu ilin beş ayı ərzində Azərbaycandan tranzit 30 faizdən çox artıb”**

**Prezident bildirib ki, bir neçə il əvvəl Strateji Tərəfdaşlıq barədə Bəyannamə imzalanıb:** ”Hesab edirəm ki, bu sənədi iqtisadi, sənayenin inkişafı, ticarət, enerji, daşımalar, turizm, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığımızın olduqca praktiki nəticələrinə çevirmək vaxtı artıq yetişib. Əlbəttə ki, biz əsasən enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik və bu müzakirəni davam etdirəcəyik. Lakin eyni zamanda, coğrafi yerləşməni, Avropa və Azərbaycanın dəmir yolu sistemini birləşdirmək üçün qonşularımızla həyata keçirdiyimiz layihələri, Azərbaycandan keçən yüklərin artan həcmini nəzərə alsaq, daşımalar sahəsində böyük potensial mövcuddur. Yalnız bu ilin beş ayı ərzində Azərbaycandan tranzit 30 faizdən çox artıb. Hesab edirik ki, bu yalnız başlanğıcdır, çünki burada potensial var. Bir sözlə, geniş əhatəli məsələlər müzakirə edildi”.

**“Şərq ilə Qərb arasında qovşağa çevrilə bildiniz”**

**Bolqarıstanın Baş naziri Kiril Petkov da öz növbəsində deyib ki, Azərbaycan Avropa İttifaqının üzvü olan Bolqarıstana arxalana bilər:** ”Dostluq belə də olmalıdır. Mən, həmçinin tam anlayıram ki, iki ölkə arasında dostluğun uzun tarixi var və çox sahələri əhatə edir. Çox məmnunluqla öyrəndim ki, biz hətta enerji sahəsinə aid olmayan digər məsələləri - texnologiyaları, informasiya texnologiyalarını, kənd təsərrüfatını, tikintini də müzakirə edə bilərik. Son illər ərzində gördüyünüz işlər mənə böyük təəssürat bağışladı. Siz üç beynəlxalq hava limanını tikməyə müvəffəq oldunuz və Şərq ilə Qərb arasında qovşağa çevrilə bildiniz. Bolqarıstan Avropa İttifaqının üzvüdür. Siz nəinki ikitərəfli qaydada, o cümlədən Avropa İttifaqının üzvü olan Bolqarıstana arxalana bilərsiniz. Biz də Avropa İttifaqı Şurasının üzvüyük. Beləliklə, hesab edirəm ki, birlikdə olsaq üfüqlər çox geniş və perspektivli görünəcək”.

**İsmayıl**

# Rövşən Nəcəf SOCAR-ın prezidenti təyin edilib



**Rövşən Nəcəf Prezident İlham Əliyevin sərəncamı ilə Dövlət Neft Şirkətinin Prezidenti təyin edilib.**

R.Nəcəf 1982-ci ildə Bakıda anadan olub.1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub, 2001-ci ildə bakalavr, 2003-cü ildə isə magistratura proqramını fərqlənmə ilə bitirib.

2007-2008-ci illərdə Dövlət Neft Şirkətinin (SOCAR) təqaüd proqramı çərçivəsində ABŞ-ın Kolumbiya Universitetində təhsil alaraq İqtisadi Siyasətin İdarəedilməsi/Beynəlxalq Enerji Menecment və Siyasəti üzrə magistr proqramını uğurla bitirib.

Əmək fəaliyyətinə 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər və marketinq kafedrasında laborant vəzifəsində başlayıb.

2003-2007-ci illərdə İqtisadi İnkişaf Nazirliyinin İnvestisiyalar və Beynəlxalq İqtisadi Əməkdaşlıq departamentinin İnvestisiya Siyasəti şöbəsində məsləhətçi və baş məsləhətçi vəzifəsində çalışıb.

2008-2009-cu illərdə SOCAR-ın Sərmayələr İdarəsinin Sərmayələr üzrə Kontraktlar şöbəsinin rəisi vəzifəsində işləyib.

2009-2010-cu illərdə İqtisadi İnkişaf Nazirliyində Xarici İqtisadi Əlaqələr şöbəsinin müdiri və İqtisadi İnkişaf Nazirinin köməkçisi olub.

2010-2018-ci illərdə ”Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin icraçı direktorunun müavini və icraçı direktoru vəzifələrində çalışıb.

Ölkə prezidentinin 2018-ci il 11 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilib.

Ölkə prezidentinin 2019-cu il 28 avqust tarixli Sərəncamı ilə Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri, 2020-ci il 11 fevral tarixli Sərəncamı ilə İqtisadiyyat nazirinin müavini təyin edilib. 2021-ci il 24 dekabr tarixli Sərəncam ilə iqtisadiyyat nazirinin I müavini vəzifəsinə təyin olunub. İqtisadiyyat üzrə fəlsəfə doktorudur.

3-cü dərəcəli dövlət müşaviridir.

*Evlidir, 2 övladı var.*

# Beynəlxalq Media Forumunun iştirakçıları "Azərbaycan çap mətbuatı tarixinin inciləri" sərgisi ilə tanış olublar



**Beynəlxalq Media Forumda iştirak məqsədilə Azərbaycanda səfərdə olan 20-dək ölkənin xarici media nümayəndələri və ekspertlərdən ibarət heyət ”Azərbaycan çap mətbuatı tarixinin inciləri” adlı sərgi ilə tanış olublar.**

Sərgi Heydər Əliyev Mərkəzində təşkil olunub.

Sərgidə 1920-ci ilədək nəşr edilən və ölkənin ictimai-siyasi həyatında, milli və ümumb?ş?ri dəyərlərin təbliğində müstəsna rol oynayan mətbu nəşrlər haqqında məlumatlar, həmçinin müasir dövrdə ölkə ictimaiyyətinin maarifləndirilməsində xüsusi əhəmiyyətə sahib olan çap mətbuatı nümunələri nümayiş olunub.

Bildirilib ki, sərginin keçirilməsində əsas məqsəd Beynəlxalq Media Forumun iştirakçılarının zəngin inkişaf yolu keçmiş tarixi və müasir mətbu nəşrlər, onların yaranma tarixi və əsasını qoyan şəxslər, o cümlədən ideoloji istiqamətləri haqqında məlumat almaq, həmçinin bu mətbu nəşrlərin ictimai-siyasi və mədəni həyata, milli-mənəvi oyanışa təsiri, xalqın maariflənməsi və dövrün yeniliklərinin oxuculara çatdırılması istiqamətindəki fəaliyyəti barədə məlumatlandırılmasıdır.

*Qeyd edək ki, Beynəlxalq Media Forumu sabah, iyulun 22-də Medianın İnkişafı Agentliyi tərəfindən Şuşa şəhərində təşkil olunacaq.*

**Aygün**

# İcra başçılarının fəaliyyəti göz qabağındadır

## Hansısa blogerə özünü tərifləmək gülüş doğuran üsuldur



**Bu günlərdə Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmovun maraqlı videosu yayılıb.**

Görüntülərdən aydın olur ki, bir şəxs durmadan başçıya tərif yağdırır, başçı da videonun çəkilməməsini istəyir. Video ilə bağlı sosial mediada, eləcə də ictimaiyyətdə müxtəlif fikirlər səsləndirilir. İddia olunur ki, video başçının təklifi ilə özünüreklam məqsədilə çəkilib və hansısa filmdən səhnəciyi xatırladır.

Qeyd edək ki, bir neçə gün öncə bəzi icra başçılarının da analoji videosu yayılıb. Sanki yeni bir ”trend”ə qoşulurmuş kimi, qazilərlə rəqs edərək videolar çəkdirib sosial şəbəkələrdə paylaşdırırlar.

**İcra başçılarının əksəriyyətinin insanlarla işləmək təcrübəsinin olmadığını deyən sosioloq-alim Əhməd Qəşəmoğlu ”Şərq”ə bildirib ki, onlar öz nüfuzlarını artırmaq üçün cəmiyyətin tələb etdiyi metodlardan istifadə etməlidirlər:** ”İndiki icra başçılarının sosial işin nə olması və idarəetmədə hansı metodlardan istifadə edilməsi barəsində məlumatları yoxdur. Hazırkı dövrdə cəmiyyət xeyli mürəkkəb və həssas olub. Bu zaman hansısa təşkilatın rəhbəri olmaq xüsusi elmi bacarıq tələb edir. Təəssüf ki, bizim icra başçılarında və idarə rəhbərlərində sözügedən elmi bacarıq yoxdur. Onların özləri də bilmirlər ki, nəyi etsələr, onlara xeyirli olar. Sadəcə olaraq ağıllarına gələn üsullardan istifadə edirlər. Bloqerə özünü təriflətmək və hansısa jurnalistə haqqında yazı yazdırmaq köhnəlmiş üsuldur. Bu üsul 50 il öncədə qalıb. İndiki halda rəhbərlərin bütün fəaliyyətləri göz önündədir və bu fəaliyyətlər barəsində məlumat almaq üçün xeyli informasiya mənbələri var. İcra rəhbərləri bunları aydın təsəvvür etməlidir.

Öncə onlar araşdırmalıdır ki, əhali ilə necə yaxşı münasibətlər yaratmaq və dil tapmaq olar”.

**Nihat Müzəffər**



# “Ermənistandan konkret addımlar görmürük"

## Mövlud Çavuşoğlu: “Biz bu prosesi Azərbaycanla koordinasiya etməliyik”

**“Ermənistandan konkret addımlar görmək istəyirik”. Bu barədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Nazir bildirib ki, Türkiyə Cənubi Qafqazda sülh istəyir:**

”Qarabağ Zəfərindən sonra Azərbaycanın təklifləri, bizim də yanaşmamız ortadadır. Azərbaycanla Ermənistan arasında müxtəlif vaxtlarda Moskva və Brüsseldə görüşlər keçirilib. Eyni zamanda, sərhədlərin delimitasiyası üzrə komissiyalar yaradılıb, əhatəli sülh sazişi üçün təklif irəli sürülüb”. Çavuşoğlu Ermənistanı hərtərəfli sülh sazişi üzərində işləməyə, Zəngəzur dəhlizi də daxil olmaqla, bütün layihələri həyata keçirməyə çağırıb: ”Azərbaycan da, Türkiyə də bu məsələdə səmimidir. Ermənistandan isə konkret addımlar görmək istəyirik. Biz bu prosesi Azərbaycanla koordinasiya etməliyik. Ermənistanda bunu qəbul etməyə bilərlər. Amma bu, reallıqdır. Çünki biz ”bir millət, iki dövlət”ik”.

**“Ərdoğan münasibətlərin normallaşması ilə bağlı fikirlərini Paşinyana çatdırıb”**

Mövlud Çavuşoğlu xatırladıb ki, Qurban bayramında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı baş tutub. O qeyd edib ki, Ərdoğan bayramlaşarkən münasibətlərin normallaşması ilə bağlı fikirlərini Paşinyana çatdırıb.

Çavuşoğlu qeyd edib ki, avqustun 2-də Daşkənddə Azərbaycan, Türkiyə və Özbəkistan xarici işlər nazirləri və nəqliyyat nazirlərinin görüşü olacaq: ”Belə bir oxşar görüş bir müddət əvvəl Bakıda Azərbaycan, Türkiyə və Qazaxıstan xarici işlər nazirləri və nəqliyyat nazirləri arasında keçirilib”.

**“Türkiyə, Finlandiya və İsveç nümayəndə heyətləri gələn ay görüşəcək”**

Türkiyə XİN başçısı deyib ki, Türkiyə, Finlandiya və İsveç nümayəndə heyətlərindən ibarət daimi komitənin görüşü olacaq. XİN rəhbərinin sözlərinə görə, görüş zamanı tərəflər arasında imzalanmış sənədin icra səviyyəsi yoxlanılacaq. Çavuşoğlu İsveç və Finlandiyaya xəbərdarlıq edib: ”Əgər şərtlər icra edilməsə, adıçəkilən ölkələrin NATO-ya üzvlüyü ratifikasiya edilməyəcək”.

**“ABŞ Türkiyə və Yunanıstanla münasibətdə balanslaşdırılmış siyasətini qorumalıdır”**

**Çavuşoğlu bildirib ki, Amerika Birləşmiş Ştatları Türkiyə və Yunanıstanla münasibətdə balanslaşdırılmış siyasətini qorumalıdır:** ”F-16-ların Türkiyəyə satışı məsələsində Yunanıstanın tələblərini irəli sürmək yolverilməzdir. ABŞ Yunanıstana silah satdığı zaman Türkiyənin hava məkanını pozmamaq şərti qoyurmu? Türkiyə onun əlini-qolunu bağlayacaq bir anlaşmaya razılıq verə bilməz. Onsuz, bu sadəcə, Konqresin Nümayəndələr Palatasının tələbidir. ABŞ rəhbərliyindən bu məsələyə müsbət cavab gəlir”.

**“Ukraynada atəşkəslə bağlı yox, amma taxıl dəhlizinə görə ümidliyik”**

**Nazir bəyan edib ki, İstanbulda Rusiya və Ukrayna nümayəndə heyətləri yaxınlaşmışdı. Təəssüflər olsun ki, sonra tərəflər bir-birindən uzaqlaşdılar:** ”Buna İrpin və Buçadakı vəziyyət səbəb olub. Rusiya və Ukrayna tərəflərini yenidən yaxınlaşdırmağa cəhd edirik”. Çavuşoğlu Ukraynada atəşkəslə bağlı ümidli olmadığını bildirib: ”Amma taxıl dəhlizi ilə bağlı ümidliyik”.

**İsmayıl**

# Media nümayəndələri Fəxri xiyabanda olub



**Milli Mətbuat Günü münasibətilə Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Azərbaycan Mətbuat Şurasının nümayəndələri Fəxri xiyabana gələrək Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı önünə əklil qoyulub, böyük mütəfəkkirin xatirəsi anılıb.

# Türkiyənin ailə və sosial xidmətlər naziri Şuşaya gedib




**Azərbaycanda səfərdə olan Türkiyənin ailə və sosial xidmətlər naziri Derya Yanıkın başçılıq etdiyi nümayəndə heyəti Şuşaya gedib.**

Səfərdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı da iştirak edir.

*Xatırladaq ki, D.Yanık Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın dəvəti ilə Azərbaycana rəsmi səfərə gəlib.*

# Naxçıvanda kənd təsərrüfatı məhsullarının istehsalı 4 faizdək artıb

**Bu ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasında dəyəri 152,7 mln. manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,7% çoxdur.**

Naxçıvan Dövlət Statistika Komitəsindən ”APA-Economics”ə verilən məlumata görə, bu dövr ərzində diri çəkidə ət istehsalı 13 978,3 ton, süd istehsalı 51 907,8 ton olub.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6,9%, süd istehsalı isə 1,5% artıb.

Hesabat dövründə, kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 8,86 mln. manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 1,9% çoxdur.

# Zaman daralır

## Erməni silahlılar ərazilərimizdən yaxın günlərdə çıxarılmazsa, rəsmi İrəvan bunun bədəlini çox ağır şəkildə ödəməli olacaq



## Rusiya sülhməramlılar statusuna uyğun olaraq silahlı erməniləri Qarabağdan dərhal çıxarmalıdır

**İyulun 19-da Ermənistan Silahlı Qüvvələrinin bölmələri Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində döyüş mövqelərinin yaradılması məqsədilə mühəndis-texniki və tikinti işlərinə başlayıb.**

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Ermənistanın kapitulyasiyası ilə bağlı Moskva sazişinə zidd olan bu qanunsuz fəaliyyətin qarşısını almaq üçün xəbərdarlıq atəşi açıblar. Bütün zəruri qabaqlayıcı tədbirlər görülüb. Həmçinin Rusiya sülhməramlıları kontingentinin komandanlığı məlumatlandırılıb. Bir saat sonra hadisə yerinə sülhməramlıların şəxsi heyət qrupu gəlib.

Lakin Rusiya sülhməramlıları Ermənistan Silahlı Qüvvələrinin qanunsuz fəaliyyətini, həmçinin aparılan işləri dayandırmaq əvəzinə, erməni quldur dəstələrinin təhlükəsizliyini təmin ediblər. Eyni zamanda gecə saatlarında işin davam etdirilməsinə şərait yaradıblar. Qeyd edək ki, Prezident İlham Əliyev ötən müşavirədə Rusiyanın Ermənistan ordusunun bölmələrini beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisindən çıxarmaq öhdəliyini üzərinə götürdüyünü, lakin sonradan bu öhdəliyi pozduğunu bildirdi. Görünür, Rusiya sülhməramlı kontingenti nəinki yaranmış problemin həlli üçün səy göstərir, əksinə, öz hərəkətləri ilə yaranmış gərginliyi daha da gücləndirir.

**Rus hərbçilərinin hərəkətləri barədə fikirlərini "Şərq"lə bölüşən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Rusiya sülhməramlılarının fəaliyyəti onların statusuna qətiyyən uyğun gəlmir:** "Artıq neçənci dəfədir ki, neytrallıq və bitərəflik prinsiplərini pozaraq, birmənalı formada qanunsuz erməni silahlı birləşmələrini dəstəklədiklərini aşkar şəkildə nümayiş etdirirlər. Təbii ki, həm rusların müvəqqəti nəzarətində olan Qarabağ ərazilərində, həm də Ermənistanla Azərbaycan sərhədində yaradılan hərbi infrastruktur, qazılan səngərlər, inşa edilən mühəndis qurğuları ölkəmizə qarşı ərazi iddiaları anlamına gəlir. Ermənistan da, Qarabağda olan separatçılar da yaxşı başa düşür ki, prosesin həllini uzatmaq mümkün deyil. Silahlılar bölgədən mütləq çıxarılmalıdır. Dövlət başçısı İlham Əliyevin də bu barədə məlum bəyanatı var.

Rəsmi məlumatda eyni zamanda Rusiya sülhməramlılarının fəaliyyətindən narazılıq ifadə olunur. Həmçinin Ermənistan rəhbərliyinin birgə bəyanatla üzərinə götürdüyü öhdəliklərinin yerinə yetirilməməsinə diqqət çəkilir. Bütün proseslər onu göstərir ki, ölkə ictimaiyyəti ilə bərabər cənab Prezidentin də bu məsələdə səbri tükənmək üzrədir. Ermənistan artıq qərarını açıqlamalıdır. Əks halda Azərbaycan "Dəmir yumruğu" yenidən işə sala bilər. Bu isə hazırkı darmadağın vəziyyətində olan rəsmi İrəvan ordusu üçün çox böyük fəlakətlər vəd edir. Sülhməramlıların hərəkətlərinə isə ayrıca bir qiymətləndirmə olmalıdır.

Təbii ki, yanlışlar kifayət qədər çoxdur. Laçında azərbaycanlılara aid evin damının və taxta konstruksiyaların sökülüb, rus hərbçilərinin maşınlarına yüklənib daşınması, erməni silahlılarına ərazilərimizdə səngərlərin inşasına şəraitin yaradılması baxımından narahatlıqlarımız var.

Eyni zamanda Qarabağ ərazisinə qeyri-qanuni silahların keçirilməsi və s. kimi sülhməramlıların çoxsaylı işlərindən narazıyıq. Bu rahatsızlıqların aradan qaldırılması və Azərbaycanın səsləndirdiyi fikirlərə münasibət bildirməsi Rusiya Müdafiə Nazirliyinin "boynunun borcu"dur. Əgər həllini tapmayan məsələlər təcili surətdə yoluna qoyulmazsa, erməni silahlıları ərazidən yaxın günlərdə çıxarılmazsa, rəsmi İrəvan bunların bədəlini çox ağır şəkildə ödəməli olacaq. Həm Ermənistan, həm də Qarabağdakı separatçı qurum çox ağrılı, acılı faciələrə məruz qalacaq".

**Sücayət Mehti**



# "Cəmiyyətin həyatında medianın rolu artır"

## Səadət Yusifova: "Həyata keçirilən islahatlar ölkəmizin informasiya mühitinin sağlamlaşdırılması, rəqabət mühitinin inkişaf etdirilməsi məqsədi daşıyır"

**21 iyul tarixində Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən "Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda konfrans keçirilib. Beynəlxalq media və ictimaiyyət nümayəndələri, xarici və yerli media ekspertlərinin iştirak etdiyi konfransın təşkil edilməsində məqsəd Azərbaycan mətbuatının keçdiyi inkişaf yolu, müasir dövrdə media islahatları, əldə olunan ilkin nəticələr və təhlilə yönələn fikir mübadiləsinin aparılması olub.**




MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov açılış nitqində bildirib ki, Medianın İnkişafı Agentliyi ilk növbədə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki və hüquqi bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir.

**Konfrans "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin moderatoru olduğu panel sessiyanın müzakirəsi ilə davam edib.** Paneldə çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, Ümummilli Liderin həyata keçirdiyi fundamental islahatlar nəticəsində müstəqil Azərbaycanın informasiya siyasətinin prioritetləri müəyyən edilib, senzura ləğv edilib. Media üzərində dövlət nəzarəti aradan qaldırılıb, onun maddi-texniki bazası möhkəmləndirilib, yeni inkişaf perspektivləri açılıb. S.Yusifova cəmiyyətin həyatında medianın rolunun durmadan artdığını deyib. O, medianın fəaliyyətində hər zaman obyektivlik, modernləşmə, rasionallıq, kreativlik, sosial məsuliyyət prinsiplərinin, milli maraqların daim rəhbər tutulmasının zəruriliyini vurğulayıb: "Prezident İlham Əliyev mediaya yüksək qiymət verir. Son iki ildə media sahəsində həyata keçirilən islahatlar ölkəmizin informasiya mühitinin sağlamlaşdırılması, rəqabət mühitinin inkişaf etdirilməsi, medianın nüfuzunun artırılması məqsədi daşıyır. Bu gün Azərbaycan mediasında həyata keçirilən islahatların məqsədi ənənəvi medianın rəqəmsal mediaya sürətli keçidini təmin etmək, medianın maddi-texniki bazasının gücləndirilməsi, media subyektlərinin uğurlu biznes modelinin formalaşdırılması, cəmiyyətin mediaya etimadının artırılması, medianın beynəlxalq əməkdaşlığının genişləndirilməsidir. Medianın gücünü 30 illik işğal dövründə, Vətən müharibəsi dövründə və post-müharibə dövründə gördük. İkinci Qarabağ müharibəsi zamanı Azərbacan mediası informasiya müharibəsinə daha hazırlıqlı idi. Düzgün informasiya və kommunikasiya strategiyası qurmaqla Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinə aktiv çatdırmağa nail oldu. Cənab Prezident İlham Əliyevin 30-dan artıq beynəlxalq media qurumuna müsahibə verməsi beynəlxalq mediaya çıxış problemini aradan qaldırdı". O qeyd edib ki, müharibədən sonra azad olunmuş ərazilərə səfərlərin təşkili 30 il ərzində olan erməni miflərini darmadağın etdi. "Bərpa-quruculuq işləri ilə də Azərbaycan nümunə oldu. Dünyanın heç bir ölkəsi bu qədər qısa müddətdə bu qədər bərpa və quruculuq işləri həyata keçirməyib. Görülən işlərin, yeni, dirçələn, çiçəklənən Qarabağın dünyaya təqdimatı isə hazırda əsas məsələdir. İnformasiya ən əhəmiyyətli və ən həssas yanaşma tələb edən faktordur. Ümid edirəm ki, Azərbaycan mediası bundan sonra da dövlətin inkişafına xidmət edəcək".

**Mətbuat Şurasının sədri Əflatun Amaşov "Əkinçi" qəzetindən başlayan milli mətbuatın tarixinə nəzər salıb, ötən dövrdə medianın, mətbuatın inkişafında müsbət dinamikaya toxunub.**

**Audiovizual Şurasının Aparat rəhbəri Fazil Novruzov Audiovizual Şuranın fəaliyyətindən bəhs edib və bildirib ki, müxtəlif tənəzzül və tərəqqi dövrünü yaşayan Azərbaycan mediası cəmiyyətin güzgüsü rolunu oynayıb:** "Milli Mətbuatın qollarından biri də audiovizual mediadır. Keçən illərdə dövlət radio və televiziya kanalları ilə yanaşı, özəl radio və televiziya kanalları yaranmağa başlayıb. Ulu öndərin ölkənin ağır vəziyyətində hakimiyyətə qayıdışından sonra medianın gücünü dərk edərək hər zaman Azərbaycan mediasının dostu və dəstəkçisi oldu, Azərbaycan mediasında senzuranı ləğv etdi. Dövlətin informasiya cəbhəsində dayağı azad mediadır. Bunu müasir dövrdə atılan addımlar da bir daha göstərir. Jurnalistlərin güzəştli ipotekadan yararlanması ilə bağlı Prezident İlham Əliyevin fərmanı bunun bariz nümunəsidir".

**Daha sonra Fazil Novruzov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan mediasının fəaliyyətindən bəhs edib.** Vətən müharibəsindən sonra Kəlbəcərdə ermənilər tərəfindən basdırılan minaya düşərək həlak olan jurnalistlər - Məhərrəm İbrahimovu və Sirac Abışovu xatırlayıb.

Konfrans çərçivəsində MEDİA-nın yenilənmiş veb-saytının təqdimatı olub. Agentliyin nümayəndəsi Ləman İsgəndərova bildirib ki, sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar nəzərə alınmaqla yenidən qurulub. Yenilənmiş veb-sayt informativ olmaqla yanaşı, istifadəçilər üçün daha əlçatan olub.

**İsmayıl**

# Qərb də böhran içindədir, Rusiya da...

## Hələ mütləq qalibdən və məğlubdan danışmaq tezdir

**İsmayıl Qocayev**

**ABŞ-ın dövlət katibi Entoni Blinken Rusiyanın Ukrayna savaşında artıq məğlub olduğuna əmindir. Onun fikrincə, bundan sonrakı mərhələdə yalnız Rusiyanın öz məğlubiyyətini etiraf edərək, kapitulyasiya aktını imzalamasına nail olunması əsas hədəfə çevrilməlidir. ABŞ dövlət katibi belə optimist qənaətə gəlməsinin əsas səbəbini Ukrayna ordusunun fədakarlıqla müdafiə olunması ilə izah edir. Onun fikrincə, Rusiya Prezidenti Vladimir Putinin Ukraynanı müstəqil və suveren dövlət kimi məhv etmək planı iflasa uğrayıb:**

"Rusiyanın əsas hədəfi uğursuzluğa düçar oldu. Bizim kəşfiyyatın məlumatına görə, Rusiya ordusu döyüş əhval-ruhiyyəsini itirib. Canlı qüvvə itkiləri faciəvi statistikaya malikdir. Rusiya ordusu silah-sursat və hərbi texnika təchizatı sahəsində ciddi problemlər ilə üzləşib. Üstəlik, savaş meydanında olan real vəziyyət barədə məlumat verməkdən imtina edən hərbi rəhbərlik problemi də mövcuddur". Ancaq Kremldə və Rusiya cəmiyyətində ABŞ dövlət katibinin iddialarına nəinki əhəmiyyət vermirlər, üstəlik, tamamilə fərqli situasiyanın hökm sürdüyünə inanırlar.

**Politoloq Elçin Xalidbəyli vurğulayıb ki, Kreml Ukrayna savaşının Rusiyanın planlarına uyğun davam etdiyi qənaətinə malikdir. Eyni zamanda, bu planların tam şəkildə reallaşdırılmasına qədər savaşı davam etdirmək niyyətində olduğunu birmənalı şəkildə vurğulayır:** "Kreml hesab edir ki, Rusiya uzun müddət, hətta ən əlverişsiz şərtlər altında belə müharibə aparmağa qadirdir, bunun üçün yetərincə daxili resurslara sahibdir. Rusiya cəmiyyətində hökm sürən əhval-ruhiyyəni isə ABŞ-ın məşhur CNN telekanalı bir müddət öncə Moskvada səfərdə olmuş əməkdaşının təəssüratları əsasında təsvir edib. Həmin təsvirə görə, rusiyalılar Ukrayna savaşında bütün dünyaya qarşı vuruşduqlarını düşünürlər. Onların fikrincə, Rusiya həm Ukraynaya, həm də ABŞ və Qərbə qalib gəlir. Rusiya vətəndaşlarının əksəriyyəti hesab edir ki, onların ölkəsinin iqtisadiyyatı sarsıdıcı zərbələrə məruz qalıb. Ancaq buna baxmayaraq, Rusiya iqtisadiyyatı tab gətirib və özünü bərpa etməyi bacarıb. Eyni zamanda, rusiyalılar əmindirlər ki, onların ölkəsi fantastik maliyyə vəsaitləri qazandığı halda, ABŞ və Qərb iqtisadi təzyiqlərlə üzləşməkdədir. Əlbəttə ki, Rusiya cəmiyyətində belə əhval-ruhiyyənin hökm sürməsi o qədər də təəccüblü deyil. Rusiya dünya ölkələri arasında ən effektiv propoqanda sisteminə malik olan dövlətdir. Bu ölkədə əsl həqiqətlərin açıq ifadə olunması və ortaya çıxarılması ən çətin problemlərdən biri kimi diqqəti çəkir. Belə ki, indiyə qədər mindən artıq xarici şirkət Rusiyanı tərk edib. Zaman keçdikcə, bu, Rusiya vətəndaşlarının gündəlik həyat şəraitinə mütləq öz mənfi təsirlərini göstərməyə başlayacaq. Bütün rusiyalılar istər-istəməz sanksiyaların ağır təsirlərini hiss etməli olacaqlar. Nə qədər arzuedilməz olsa da, bu, qaçılmaz xarakter daşıyır.



Məhrumiyyətlərə daha dözümlü Rusiya əhalisindən fərqli olaraq, ABŞ və Avropa dövlətlərinin vətəndaşları yüksək həyat şəraitindən uzaqlaşmağa hazır deyillər

Təbii ki, Rusiya iqtisadiyyatı ilə bağlı rusiyalıların böyük ehtimalla ən yaxşı halda, müvəqqəti xarakter daşıyan optimist əhval-ruhiyyəsinin müəyyən statistik əsasları da olmamış deyil".

**Ekspertə görə, ABŞ və Avropa iqtisadiyyatının enerji böhranı ilə sarsıldığı bir mərhələdə Rusiyanın ixrac gəlirləri savaş dövründə ötən ilin eyni zaman intervalına münasibətdə 70 faizə yaxın artıb:** "Halbuki, bu müddətdə Rusiyanın idxal göstəriciləri də 25-30 faiz həddində azalmaya məruz qalıb. Bu, yaxın aylarda Rusiya əhalisinin və dövlətin ehtiyaclarının ödənməsinə mənfi təsir göstərə bilər. Yəni əslində, sosial-iqtisadi situasiyaya təsir göstərə biləcək önəmli faktorlar orta perspektiv üçün heç də birmənalı optimist əminliyə ciddi əsaslar vermir.

Anlaşılan odur ki, ABŞ və Qərb Rusiyanı artıq məğlubiyyət ilə barışmalı olan tərəf kimi təqdim etməyə çalışır. Ancaq Rusiyada tamamilə fərqli düşünürlər. Yəni əksinə, ABŞ və Qərbin məğlubiyyətə məhkum olduğu ilə bağlı qənaətə gəliblər. Əslində hər iki tərəfin propoqanda xarakteri daşıyan iddiaları eyni səviyyədə qüsurlu yanaşma təsiri bağışlayır. Məsələ ondadır ki, yaxın gələcəkdə hadisələrin necə mənzərə yaradacağı hələlik təsəvvürlərdən xeyli uzaqdır. Üstəlik, indiki situasiyada mütləq qalibdən və ya məğlubdan danışmaq da bir qədər tezdir. Hətta müəyyən mənada, məntiqsizdir. Buna əmin olmaq üçün hər iki tərəfin üzləşdiyi sosial-iqtisadi vəziyyəti diqqətə almaq tamamilə yetərlidir. Çünki Rusiyaya qarşı total xarakterli beynəlxalq sanksiyalar bu ölkənin iqtisadiyyatına və əhalisinin sosial durumuna heç bir halda təsirsiz ötüşə bilməz. Böyük ehtimalla Rusiya cəmiyyətində tezliklə bu reallıqla daha ciddi şəkildə üzləşməyə başlayacaqlar. Və yəqin ki, məhz bundan sonra Kreml Rusiyanın üzləşdiyi sosial-iqtisadi problemləri tədricən etiraf etmək məcburiyyətində qalacaq".

**E.Xalidbəyli qeyd edib ki, oxşar xoşagəlməz proseslər ABŞ və Qərbi də gözləyir. Rusiyanın enerji resurslarından imtina nəticəsində ABŞ və Avropa iqtisadiyyatı artıq indidən durğunluq dövrünə yaxınlaşır:** "Sosial-iqtisadi böhranın təhlükəli əlamətləri zaman keçdikcə, daha qabarıq şəkildə müşahidə olunur. Enerji böhranı Qərb iqtisadiyyatında artım tempini zəiflədir. Əvəzində humanitar problemləri ön plana çıxarır. Məhrumiyyətlərə daha dözümlü Rusiya əhalisindən fərqli olaraq, ABŞ və Avropa dövlətlərinin vətəndaşları yüksək həyat şəraitindən uzaqlaşmağa hazır deyillər. Bu, tezliklə kütləvi etiraz dalğası üçün stimullaşdırıcı faktora çevrilə bilər. Ancaq mövcud situasiyadan maksimum səviyyədə mənfəət əldə edənlər də olmamış deyil. Bu kateqoriyaya ilk növbədə Qərbin silah sənayesini aid etmək olar. Çünki Ukraynaya silah tədarük edən ölkələr öz köhnə hərbi ehtiyatlarını artıq bu məqsədlə istifadə edib, tükəndirməyə başlayıblar. Ona görə də indi Ukrayna üçün tədarükçü rolunu oynayan əsas dövlətlər silah şirkətləri ilə həm öz hərbi ehtiyatlarını yenidən bərpa etmək, həm də rəsmi Kiyevin hərbi texnika tələblərini qarşılamaq məqsədilə yeni və bahalı müqavilələr bağlamaq məcburiyyətində qalıblar. Göründüyü kimi, Rusiya və Ukrayna savaşır, NATO ölkələri bu müharibəyə on milyardlarla dollar xərc çəkirlər. Ancaq hələlik Ukrayna savaşından birmənalı şəkildə qazananlar yalnız silah sənayesidir. Bu baxımdan, Ukrayna savaşının indiki situasiyada yeganə qalibi statusunda da məhz on milyardlarla xalis qazanc əldə etməkdə olan silah şirkətləri çıxış edirlər. Ona görə də indi Qərbin silah sənayesinin təmsilçiləri məmnun halda, səhnə arxasından boylanırlar".

**Axşam söhbəti**





## Zərdüşt Əlizadə:

“Təhlükəsizlik məsələləri tam həll olunduqdan sonra, cənab Prezident göstəriş versə, ermənilərlə birgə yaşayarıq”

# "2025-ci ildə Rusiya sülhməramlıları Qarabağdan çəkiləcək"

## “Rusun hiyləsi, nəzarət mexanizmi olsa da, hər halda vəziyyət, şərait, qüvvələr nisbəti dəyişib”

*Tanınmış politoloq Zərdüşt Əlizadənin ”Şərq”ə müsahibəsini təqdim edirik.*

**- Azərbaycanla Ermənistan arasında yekun sülh niyə uzanır, bu prosesi kim, niyə ”tormozladır”?**

- Dünya gücləri var, böyük dövlətlər və onların maraqları mövcuddur. Müxtəlif qütblər formalaşıb. Bunları da nəzərə almaq lazımdır. Çünki biz balaca dövlətik. Ona görə işlərimiz çətinliklə keçir. Amma müəyyən diplomatik məharət göstərməklə istəyimizə nail ola bilərik. Hər halda müharibənin bitməsindən 1 il yarım keçib. Yavaş-yavaş məsələ aydınlaşır. Ermənistanın Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryan elan edib ki, sentyabrda Ermənistan silahlı qüvvələrini Qarabağdan çıxaracaq. Bu, müsbət hadisədir. Ondan sonra, yəqin növbəti mərhələ başlayacaq. Bu mərhələ erməni ailələri ilə Azərbaycan dövləti arasında münasibətlərin tənzimlənməsindən ibarət olacaq. Əhalinin orada qalması üçün müəyyən şərt və zəmanətlər veriləcək.

**- Artıq Ağalıya köç başlayıb...**

- Bəli, Ağalı kəndinə sakinlər yerləşdirilir. Başqa kəndlərə də köçlər olacaq. Bu proseslərdən sonra növbə bilavasitə Xankəndi ətrafına azərbaycanlıların qayıdışı məsələsinə gəlinəcək. Bundan sonra Qarabağda azərbaycanlıların sayı artacaq. Onların sayı 200-300 mini keçəndə artıq bəlli olacaq ki, Qarabağ məsələsi həll olunub. Ermənilərlə münasibətlər səhmana salındıqdan, qanuni müstəviyə keçid aldıqdan sonra vaxt gələcək, sülhməramlılar da Qarabağı tərk edəcəklər.

**- Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı açıq kontekstdə çıxışları var. Ali Baş Komandan bu dəhlizin açılacağını bəyan edib. Lakin biz hələ də bu açılışı görmürük. Dəhliz niyə açılmır?**

- Mən sual verim: Bizi kimsə qovur?

**- Xeyr.**

- Vəssalam. Hər şeyin öz zamanı var. Əsas odur ki, hər iki tərəf razılıq əldə edib. Zəmanət də verilib. Çünki bu dəhliz Rusiyaya xeyirlidir, onun iqtisadiyyatı üçün də faydalıdır. Hər halda açılacaq.

**- Ötən gün Rusiya, Türkiyə və İran prezidentlərinin Tehranda zirvə görüşü baş tutdu. Orada İran prezidenti açıqlayıb ki, Qarabağın qaytarılmasına sevinirik, amma Ermənistan və İran arasında əlaqə kəsilərsə, İran buna qarşı çıxacaq...**

- Qarşı çıxıb nə edəcək? İran öz təəssüfünü, narahatlığını bildirəcək ki, yol açılsın. Tərəflərə təklif edəcək ki, yolun açılması üçün lazım olanı etməyə hazırıq. Belə bir şəkildə olacaq. Razılaşma, anlaşma ilə həll olunacaq.

**- Qeyd etdiniz ki, zaman gələcək rus sülhməramlıları da çıxacaqlar. Bəzən cəmiyyətdən, ayrı-ayrı politoloqların dilindən nidalar eşidirik ki, Rusiya Qarabağda olduğu müddətcə orada növbəti təxribatlar olacaq, Qarabağda qalma müddətini uzadacaqlar və s. Realdırmı?**

- Rusun təbii ki, hiyləsi, nəzarət mexanizmi var. Amma hər halda vəziyyət, şərait, qüvvələr nisbəti dəyişib. Elə ümid edirəm ki, göstərilən zamanda - 2025-ci ildə Qarabağdan yavaş-yavaş çəkiləcəklər. Çıxmasalar, maksimum 5 il daha burada qalacaqlar. Çünki sülhməramlıların Qarabağda qalması Azərbaycanın öz erməni sakinləri ilə birgə yaşayış qaydalarını müəyyənləşdirməsindən asılıdır. Biz bu qaydaları müəyyənləşdirsək, dil tapsaq, barışsaq, normal həyata qayıtsaq və anlasalar ki, erməni vətəndaşlara bizim hakimiyyətdən təhlükə yoxdur, o zaman rusların qalmasına ehtiyac yoxdur.

**- Zərdüşt müəllim, bu qədər şəhid və qazidən sonra ermənilərlə birgəyaşayış çətin olmayacaqmı? Bunu xalqa necə həzm etdirmək olar?**

- Bizim jurnalistlərimiz hələ 15-20 il əvvəl cəbhə xəttində erməni ordusu tərəfindən atəşə tutulmuş azərbaycanlılardan soruşmuşdular ki, şərait və sülh yaranarsa, ermənilərlə birgə yaşaya bilərsinizmi? Onlar dedilər ki, niyə yaşamırıq ?! Cənab Prezident göstəriş versə, yaşayarıq. Prezident də təhlükəsizliyə təminat verdikdə bunu əmr edəcək. Yəni sizə deyim, Azərbaycan əhalisində və erməni əhalisinin xeyli hissəsində düşmənçilik hissi yoxdur. O adamların ki, çörəyi düşmənçilikdən çıxır, onlar çörək xatirinə qışqırırlar ki, biz düşmənik, yaşaya bilmərik və s. Bunlar hamısı boş söhbətdir. Xalqların hər biri birbiri ilə yaşaya da bilər, dost da ola bilər.

**- Bir az da daxili siyasətdən, daha konkret desək, iqtidar-müxalifət dialoqundan danışaq. Azərbaycanda siyasi partiyaların fəaliyyəti qənaətbəxşdirmi?**

- Azərbaycanın siyasi həyatını müəyyənləşdirən qüvvə Azərbaycan hakimiyyətidir. Bəzi partiyalar mövcuddur ki, onların Azərbaycanın gələcəyi barəsində fərqli təsəvvürləri var. ”REAL” və ”RİFAH”ın təsəvvürü var. Digər partiyalarda belə bir təsəvvür yoxdur. Onların təsəvvürlərini ”YAP deyibsə, belədir” kimi sadə məntiqlə izah etmək olar. Bu sadə məntiqə əhali inanmır. Bəzi partiyalar mitinqlərə çağırış edir. Amma mitinq dağıtmaq üçündür, qurmaq üçün deyil. Mitinq hələ ağlabatan bir şey qurmayıb. Bəlkə dağıtmağa layiq olan şeylər var, amma əsas dağıtmaq deyil, qurmaqdır. Çox ümid edirəm ki, RİFAH və REAL partiyaları normal şərait yaranandan sonra parlamentdə daha geniş təmsil olunacaqlar. Amma indiki şəraitdə siyasi partiyalardan möcüzə gözləmək əbəsdir.

**- Ayrı-ayrı dövlət qurumlarında korrupsiya və rüşvətə qarşı mübarizə aparılır. ”Təmizləmə” prosesi gedir. Doğrudan da təmizləyə biləcəklərmi?**

- Dövlətin saflığı dövlətin azadlığından asılıdır. Dövlət, vətəndaş azad olarsa, sərbəst şəkildə öz fikrini deyə bilərsə, bu hallar yaşanmaz. Vətəndaş kor, kar deyil. Hamı görür ki, hansı məmur oğurlayır, rüşvət alır, vətəndaşların hüquqlarını tapdalayır. Amma azadlıq və sərbəstlik yoxdur deyə, bunu deyə bilmirlər. Deyəni də şərləyirlər, içəri salırlar. Əgər cəmiyyətin saflaşmasını istəyirsənsə, ilk addım kimi vətəndaşın konstitusiyada yazılmış hüquqlarının gerçəkləşməsinə şərait yaratmaq lazmdır. Onun azadlığına hörmət etmək lazımdır. Onda cəmiyyət özü-özlüyündə elə qurumlar yaradacaq ki, nəzarət etsin. Azərbaycanın bütün dövlət qurumlarının büdcələri dövlət sirridir. Bu vətəndaşlar bilməlidir ki, dövlət büdcəsinə gələn pullar necə xərclənir. Hamısı şəffaf şəkildə olmalıdır. Bütün xərclər, gəlirlər saytda göstərilməlidir. Bunlar hamısı sirdir. Bu səbəbdən hər bir nazir onun nazirliyinə ayrılmış büdcəni ”dədəsinin malı” hesab edir. Bizdə tenderlər qeyri-şəffafdır. Vətəndaş cəmiyyəti təpik altındadır, sərbəst fəaliyyət göstərə bilmir. İqtisadi azadlıq yoxdur.

Belə şəraitdə əlbəttə ki, Azərbaycanda saflaşmadan söhbət gedə bilməz. Bir məmuru çıxarıb, onun yerinə başqa bir məmuru qoyanda yüz faiz deyə bilərsən ki, həmin məmur da eyni işlərlə məşğul olacaq. Saflaşma cəmiyyətin azadlığı ilə ölçülür. Dünyada korrupsiyadan azad olan ölkələr demokratik ölkələrdir. Dünyanın ən demokratik ölkələri Skandinav ölkələridir. Finlandiya, Danimarka, İslandiya, İsveç, Norveç kimi ölkələrdir. Bu ölkələrdə demək olar ki, korrupsiya yoxdur. Baş verərsə də, həmin adam dərhal cəzalandırılır.

**- Amma mübarizənin müsbət nəticələri də olur axı**

- Yaşım çox olsa da, yaddaşım itidir. Son 10 ildə Azərbaycan məmurlarının rüşvət alması halları 2 dəfədən çox azaldılıb. Bu gün Gömrük Komitəsinin rüşvət almasını hamı bilir. Bu komitə yaranan gündən hamı orada rüşvət yolu açıb. Bu 30 ildə Dövlət Gömrük Komitəsi rüşvətə yol açıb. Heç kimin ağlı kəsmədi ki, bunları dəyişsinlər? Səfər Mehtiyev gəldi, bütün qohumlarını vəzifəyə təyin etdi. Hamısı general, polkovnik oldu. Hər biri ev-eşik, villa, bahalı maşın sahibi oldu. Bunları hamı görürdü. Mən yazırdım. Çifayda? Heç veclərinə də almırdılar. İndi nəsə baş verdi, onu çıxardılar. Xaricdə gömrük nədir? Xaricdə elektron yazışma vasitəsi ilə həyata keçirilir. İdxal, ixrac üçün müraciət edirsən, uyğundursa, sənə sənəd gəlir. O sənədlə işlərini həll edirsən. Heç gömrük məmurunun üzünü belə görmürsən. Amma bizdə şişirdiblər. Daha çox adamın rüşvət alması üçün belə ediblər. Bunu hamı bilir və görür. Deyirik, amma çatmır. Çünki onlara xeyir deyil. Həm də xalqın özü kaldır. Xalq haqqını tələb edə bilmir.

**- 3+3 formatı ilə bağlı düşüncələriniz maraqlıdır. Bu format işləyəcəkmi? İşləyəcəksə, region üçün faydası nədən ibarət olacaq?**

- İşləsə, istənilən birgə söhbət, məsləhətləşmə, birgə qərar qəbul etmə, əməkdaşlıq çərçivələri üçün faydalıdır. Amma bu formatın işləyib-işləməməsi əsasən Rusiyadan asılıdır. Çünki Kremlin işğalçı, müstəmləkə siyasəti imkan vermir ki, Gürcüstan o formatda iştirak etsin. Rəsmi Moskvanın mövqeyi dəyişsə, Gürcüstanın da mövqeyi dəyişər. Hər şey dövlətlərin xoş məramından asılıdır.

**- Son dönəmlər Qərbin Rusiyaya qarşı sanksiyalarının müəyyən hissəsini yumşaltdığına dair siqnallar alırıq. Necə düşünürsünüz, Rusiya-Ukrayna məsələsində Qərbin yumşalmalara getməsi mümkündürmü? Müharibə necə yekunlaşacaq?**

- Hələlik heç bir həll yoxdur. Danışıqlar gedir, amma həll yoxdur. Digər tərəfdən Ukrayna taxılının dünya ərzaq bölgüsündə rolu həddən artıq şişirdilib. Yəni Ukrayna taxılı olmasa, dünyada aclıq olmayacaq. Çünki bu, cəmi 4-5 faiz həlledici paya sahibdir. Bununla bərabər, Ukraynada yeni məhsulun yığılması vaxtı yaxınlaşır. Həm dövlət, həm də hərbi istehsalçılar maraqlıdırlar ki, keçən ilin məhsulu daşınsın getsin. Bu sahədə danışıqlar gedir. Nəticə olacaq, olmayacaq, o qalsın bir tərəfə. Əsas odur ki, Qərb Ukraynanın arxasında möhkəm dursun, onu maliyyə və silahla təmin etsin. Ukrayna ordusu öz vətənini müdafiə etməyə hazırdır. Əgər silah-sursat bol olarsa, əminəm ki, Ukrayna ordusu işğal olunmuş ərazilərin böyük bir hissəsini azad etməyə qadirdir. Onda Rusiyanın da mövqeyini dəyişmək mümkün olacaq.

**Hazırladılar:**
**Çimnaz Şahlar,**
**Ayyət Əhməd**

# Rusiya normallaşma prosesini pozur

## Azərbaycan öz mövqeyini, etirazını dilə gətirdi



**İyulun 20-də Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini və cari regional vəziyyəti müzakirə ediblər. Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların müddəalarının tam icrasının vacibliyi diqqətə çatdırılıb.

Həmçinin tərəflər bölgədə nəqliyyat və tranzit məsələləri ətrafında fikir mübadiləsi aparıb. Xüsusilə də Rusiya, Azərbaycan və İran ərazisindən keçən ”Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialının genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. XİN başçıları eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ”Şərq”ə bildirib ki, Azərbaycan tərəfi ilə Rusiya arasında müəyyən narazılıqların olduğu məlumdur:** ”Xüsusilə də rus sülhməramlıları ilə bağlı Azərbaycan öz mövqeyini, etirazını dilə gətirdi. Ötən gün də sülhməramlıların yerləşdiyi bölgəyə ermənilərin silah keçirməsinin qarşısı alınıb. Bundan başqa, Şuşakənd kəndi istiqamətində mövqelər atəşə tutulub. Görünür, Rusiyanın çox ciddi şəkildə gedişi pozmaq, yaxud da hansısa formada təzyiq etməklə bağlı planları var. Baş verən proseslər də onun üzərindən aparılır. Türkiyə də, Azərbaycan da hərbi baxımdan güclü dövlətdir. Eyni zamanda iradələrini üst səviyyəyə qaldırmaq üzrədirlər.

Bütün bunlar hamısı rəsmi Moskvada ciddi şəkildə izlənilir. Nəqliyyat və tranzit, Rusiya, Azərbaycan, İran ərazisindən keçən ”Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin potensial gücünün genişləndirilməsi məsələləri paralel şəkildə ortaya çıxdı. İlk növbədə, Zəngəzur dəhlizi açılmalıdır.

”Şimal-Cənub” Nəqliyyat Dəhlizi həmin ərazidən keçməlidir. Digər tərəfdən Azərbaycan və Avropa İttifaqı arasında yeni qaz sazişi imzalanıb.

Bu da bölgədə Rusiyanın, İranın maraqlarına müəyyən dərəcədə təsir göstərir. Analoji hibrid xarakterli münasibətlər içərisində əlbəttə ki, zərurət yaranmalı, perspektiv məsələlərin müzakirə edilməsinə mütləq şəkildə baxılmalıdır”.

**Sücayət Mehti**

# Dənizdə insanları “udan" küləkdir

## Çimərliyə gedərkən ilk öncə hava şəraiti nəzərə alınmalıdır

**İstirahətə yollanarkən qidalara diqqət etmək lazımdır. Yağlı və konservləşdirilmiş qida məhsullarından istifadə etmək tövsiyə olunmur**

**Küləkli və dalğalı havada dənizə girmək həyat və sağlamlıq üçün təhlükəlidir! Aidiyyəti qurumlar, təhlükəsizlik ekspertləri az qala hər gün bu barədə danışır, media vasitəsilə öz tövsiyələrini paylaşırlar. Son günlər havaların küləkli keçməsi səbəbindən Fövqəladə Hallar Nazirliyi tez-tez əhaliyə müraciət edərək bildirir ki, qeyri-çimərlik ərazilərdə çimmək, habelə küləkli hava şəraitində dənizə girmək məsləhətli deyil!**

Amma dənizdə boğulma hadisələrinin günü-gündən artması onu deməyə əsas verir ki, insanlarımızın ”Araz aşığından, Kür topuğundan”dır. Dənizdə boğulanların əksəriyyəti də məhz necə gəldi çimib, xəbərdarlıq nişanlarına məhəl qoymayıb özlərini göstərənlərdir.

Halbuki, isti yay günlərində sərinləmək, istirahət etmək üçün dənizə gedən hər kəs ilk növbədə təhlükəsizlik qaydalarına əməl etməlidir. İstisnasız olaraq!

Belə ki, küləkli havada dəniz dalğalı olduqca, suyun üst hissəsi sahilə tərəf aparır, lakin ayaqların basdığı yerdə, yəni altda isə su dənizə tərəf axır. Ayaqda duran insanı dərinə aparır.

Qeyd edək ki, Xəzər dənizinin Kürdəxanı qəsəbəsi hissəsində 17 və 14 yaşlı iki bacı - Aysel və Aysun Abdullazadələr boğulub. Ayselin meyiti həmin gün, 2008-ci il təvəllüdlü Aysun Abdulzadənin meyiti isə bir gün sonra tapılıb.

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, A.Abdulzadənin meyiti FHN Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən batdığı yerdən təxminən 11 km aralıda dənizdə tapılaraq aidiyyəti üzrə təhvil verilib.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev isə baş verən bədbəxt hadisə fonunda vətəndaşlara öz tövsiyələrini verib. Bu barədə ”Şərq”ə danışan ekspert deyib ki, çimərliyə gedərkən öncəliklə hava şəraiti nəzərə alınmalıdır:** ”Günün qaranlıq saatları, yağışlı, buludlu və küləkli havada dənizə getmək məqsədəuyğun deyil. Saat 12:00-16:00 aralığında dənizə getmək tövsiyə olunmur. Eyni zamanda, dövlət tərəfindən qadağan olunmuş çimərliyə getmək məsləhət görülmür. Çünki qadağan olunmuş çimərliklərdə təhlükəsizliklə bağlı heç bir iş görülməyib. Çimərliyə gedərkən aparılan qidalara da diqqət etmək lazımdır.

Yağlı və konservləşdirilmiş qida məhsullarından istifadə etmək tövsiyə olunmur. Eyni zamanda, çimərlikdə spirtli içki qəbul etmək yolverilməzdir. Spirtli içki qəbul edən şəxsin batma təhlükəsi daha yüksəkdir. Həmçinin, bu şəxsləri gün daha tez vurur. Nəticədə bədbəxt hadisə yaşana bilər”.



## Çimərlikdə üzməyi idman növünə çevirmək lazım deyil

**E.Nurəliyevin sözlərinə görə, valideynlər etdiyi ən böyük səhvlərdən biri uşaqlara diqqət etməməsidir. Halbuki, uşaqlar daim nəzarətdə olmalıdır. Baş verən bədbəxt hadisələrin əksəriyyəti sahildən çox uzaqlaşmaqla bağlıdır:** ”Xüsusən də gənclər daha uzaq məsafəyə üzməklə bağlı bəhsə girirlər. Çimərlikdə üzməyi idman növünə çevirmək lazım deyil. Sahilə perpendikulyar deyil, paralel üzmək məqsədəuyğundur. Dənizdə üzə bilməyənlər sinəyə qədər suya girə bilərlər, üzə bilənlər isə mövcud qaydalara riayət etməlidirlər. Dənizdə sahildən uzaqlaşmamaq üçün nəzərdə tutulmuş təhlükəsizlik şarlarını keçmək olmaz. Qadağanedici şarları keçmək, vətəndaşların özləri ilə hava şarları, katamaran, skuter və motorlu su qayıqları gətirib, suya salması qadağandır.

Dənizə girmədən öncə su axınlarına diqqət etmək lazımdır.

Dənizdə ”su axını” deyilən təbii hadisələr baş verir. Su axını zamanı dəniz suyu ağımtıl rəngdə olur və köpüklər əmələ gəlir. Su axınlarının eni 3-5 metr, uzunluğu isə 55-60 metr aralığında ola bilər. Axına düşəndə panika yaşamaq ölümə səbəb olur. Ona görə də panikadan uzaq olmaq vacibdir. Nəzərə almaq lazımdır ki, axının müddəti 3-5 dəqiqə çəkir. Axına paralel 5-6 metr sağ və ya sola üzməklə, təhlükəli vəziyyətdən çıxmaq mümkündür”.

**Ekspert həmçinin əlavə edib ki, müxtəlif xroniki xəstəliyi olan bəzi şəxslər dənizə getmədən öncə, həkimlə məsləhətləşməlidir.** İnsanda qıcolma, ürəktutma, günün təsirindən huşunu itirmək və keçici xəstəlik varsa, həkim məsləhəti olmadan dənizə getməsi düzgün deyil: ”İstifadəyə yararlı çimərliklərdə təhlükəsizlik qaydaları qənaətbəxşdir. Dövlət tərəfindən icazə verilən çimərliklərdə təhlükəsizlik FHN-in Sularda Xilasetmə Xidmətinin əməkdaşları tərəfindən təmin olunub. Onlar çimən şəxslərə nəzarət edir, batma və ya boğulma kimi təhlükəli hallara müdaxilə edirlər. Hətta bu çimərliklərdə ilkin təcili tibbi yardım briqadaları mövcuddur. Bu briqadalar Bakının 16 çimərliyində vətəndaşlara xidmət göstərir. Hər hansısa şəxsə ilkin tibbi yardım etmək lazımdırsa, dərhal müdaxilə olunur”.

**Şəymən Bayramova**

# Karantin qaydaları əsla sərtləşməyəcək

## Koronavirusun pandemiyaya çevrilmək ehtimalı sıfırdır



İnsanları panikaya salmağa, qorxutmağa ehtiyac yoxdur

**Aylar öncə yoluxma sayının kəskin azalması səbəbindən pandemiyanın başa çatdığı zənn edilsə də, koronavirus təhlükəsi yenidən bütün ölkələri narahat etməyə başlayıb. Yoluxma hallarının artması bir çox ölkələri əkstədbirlər görməyə vadar edir. Artıq bəzi yerlərdə yenidən məhdudiyyətlərin tətbiq edilməsinə qərar verilib.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesusun sözlərinə görə, son altı həftədə dünyada COVID-19 xəstəliyinə yoluxma hallarının qeydiyyata alınmış sayı hər həftə təqribən iki dəfə artıb: ”Koronavirusun hər hansı gələcək variantının geniş yayılması üçün o, daha transmissiv olmalıdır. Lakin bu variantın nə dərəcədə ölümsaçan olduğunu bilmək mümkün deyil. Ona görə bütün dünyada koronavirusa yoluxanların sayının artması fonunda dünya birliyi koronavirusun yeni variantlarının yaranmasına hazırlaşmalıdır”.

Gebreyesus dünya ölkələrini koronavirusun profilaktikasında mövcud boşluqlara, xüsusən virusun yayılmasının monitorinqinə, əhalinin peyvəndlənməsinə və dava-dərman təchizatına diqqət yetirməyə çağırıb.

Son günlər Azərbaycanda da koronavirusa yoluxanların sayında artımın müşahidə olunması, hətta dünən 305 nəfərə çatması insanlar arasında müəyyən qədər narahatlığa səbəb olub.

Bəzi insanlar yenidən sərt karantin günlərinin qayıdacağını düşünürlər. Bəzi sosial platformalarda ”maskalı günlər geri qayıdır” başlığı ilə narahatedici xəbərlər də yayılır.

*Görəsən, qarşıdakı aylarda yoluxma sayı pik həddə qədər yüksələ, pandemiya yenidən qüvvətlənə bilərmi?*

**Son günlər yoluxma sayında sürətli artım müşahidə olunduğunu vurğulayan infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında bildirib ki, səbəb yoluxub-sağalanlar və peyvənd olunanlar arasında immunitetin yavaş-yavaş azalması və xəstəliyə həssaslığın artması ilə bağlıdır:** ”Vaxt keçdikcə immunitetdə zəifləmə olur. Bu da xəstəliyə olan həssaslığı artırır. Təbii ki, indi bu şəkildə artma müşahidə edilsə də, ciddi bir şey yoxdur. Payıza doğru isə yoluxmanın sürətlənəcəyi gözləniləndir. Çünki Günəşin aktivliyinin azalması, insanların evlərə çəkilməsi, havalandırmaların azalması yoluxmanın artmasına gətirib çıxara bilər.

***Azərbaycan vətəndaşlarında infeksiyaya qarşı təbii kollektiv immunitet formalaşdığı üçün əksəriyyət xəstəliyi evdə keçirəcək***

Həkimin sözlərinə görə, Azərbaycan vətəndaşlarında infeksiyaya qarşı təbii kollektiv immunitet formalaşdığı üçün əksəriyyət xəstəliyi evdə keçirəcək. Xəstəxanaya müraciət edənlərin sayı az olacaq. Güclü məhdudiyyətlərin olacağını düşünmürəm”.

M.Əliyevin sözlərinə görə, COVİD-19 infeksiyasının növbəti dalğasından əziyyət çəkmək istəməyən hər kəs peyvənd olunmalı, bütün profilaktik gigiyena qaydalarına əməl etməli, risk qrupuna daxil olan şəxslər isə maksimum dərəcədə özünü qorumalıdır”.

Həkim Aydın Əliyev isə sosial hesabında COVİD-19-la bağlı verilən bədbin proqnozların absurd olduğunu yazıb. ”Covid-19” xəstəliyinin yenidən pandemiyaya dönərək bəşəriyyəti karantin qaydalarının sərtləşdirilməsinə sövq edəcəyi haqqında deyilən iddiaları isə əsassız dedi-qodu adlandırıb. Pandemiyanın birbaşa iştirakçısı və bu proseslə birbaşa mübarizə aparan həkim-ekspert bildirib ki, bizim ölkəmizdə ”Covid-19” pandemiyası bitib: ”Koronavirus infeksiyası artıq tarixə qovuşub! Yoluxma sayı arta bilər! Amma bu əsla və əsla pandemiyanın yenidən alovlanma anlamına gəlməməlidir. Çünki əksər insanlar yoluxub və sağalıb, ya da peyvənd edilib. Bu xəstəliyin yenidən pandemiyaya çevrilmək ehtimalı sıfra bərabərdir.

Heç bir panikaya, karantin qaydalarının tətbiqinə, sərtləşdirilməsinə, yeni karantin qaydaları tətbiq edərək insanları cərimələməyə və qorxutmağa əsas yoxdur! Xüsusən də insanları yenidən maska geyinməyə məcbur etmək və buna görə cərimələmək yolverilməzdir!

Yoluxma sayının artmasının heç bir təhlükəsi yoxdur! Çünki virus mutasiyaya uğradıqca öldürücülük qabiliyyəti demək olar ki, sıfırlanıb! Əhali 15 000 000 civarında 3 doza peyvənd edilib. Rəsmi statistikaya görə, təqribən 1 000 000 civarında insan yoluxub sağalıb, qeyri-rəsmi isə yəqin ki, təxminən bundan 3-5 dəfə daha çox insan, yəni təqribən-3 000 000-5 000 000 insan yoluxub sağalıb. ”Covid-19” artıq mövsümi qrip kimi keçirilir. Əks halda gərək hər gün qripə, su çiçəyinə və digər yoluxucu xəstəliklərə yoluxanların da sayı açıqlansın. Gündəlik statistikada göstərilən ölüm sayı əsaslandırılmamış göstəricidir! İnsanın hansı xəstəlikdən dünyasını dəyişdiyini təsbit etmək üçün dəqiq pataloji anatomik müayinə aparılmalıdır, yəni meyit təşrih edilməlidir, bütün orqanlardan nümunələr götürülüb tədqiq edilməlidir! Bizdə COVİD-19 testi müsbət olduğu halda vəfat edən şəxslərdə bu müayinələr aparılırmı? Xeyr! Aparılmır! Aparılmadığı halda bütün ölkəyə belə bir statistikanın göstərilməsi məsuliyyətsizlikdir! Ona görə də statistikada göstərilən ölüm sayı qətiyyən həqiqəti və reallığı əks etdirmir!”.

**Şəymən**



# "Ümummilli qəzetlərə ehtiyacımız var"

## “Mətbuat xaotik vəziyyətdən aydın mənzərəyə doğru keçid etməkdədir”

**”Azərbaycan mətbuatının bugünkü durumunda əvvəlki illərlə müqayisədə müəyyən irəliləyiş nəzərə çarpır”. Bu sözləri ”Şərq”ə açıqlamasında Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru, tanınmış media eksperti Qulu Məhərrəmli deyib. Milli Mətbuat Gününün 147-ci ildönümündə medianın indiki durumunu dəyərləndirən professor bildirib ki, əsas irəliləyiş mətbuatın tənzimlənməsi ilə bağlıdır: ”Mətbuat xaotik vəziyyətdən aydın mənzərəyə doğru keçid etməkdədir.**

Amma bu, hələ keyfiyyət dəyişikliyi deyil. Keyfiyyət dəyişimi o zaman baş verəcək ki, media cəmiyyəti onun ehtiyaclarına uyğun şəkildə və doğru-dürüst məlumatlandırsın. Auditoriya üçün gərəkli olan informasiyaları operativ şəkildə çatdırsın. Nəzərə alsaq ki, indiki şəraitdə peşəkar medianın həm də sosial şəbəkələr kimi heç bir qayda-qanun tanımayan alternativi, rəqibi meydana çıxıb, onda medianın vəziyyətini tam aydın təsəvvür edə bilərik. ”Media haqqında” qanun qəbul olundu. Qanunda müəyyən problemlər var və bu barədə çıxışlarımız olub. Amma bununla yanaşı, münasibətləri tənzimləmək baxımından səmərəli məqamlar çoxdur. Arzu edərdik ki, Venesiya Komissiyasının iradları da nəzərə alınsın. Bu, ancaq mətbuatımızın xeyrinə olar. O zaman medianın tənzimlənməsinin hüquqi əsasları kimi qanuna ciddi şəkildə istinad edə bilərik”.

**Qulu Məhərrəmli: "Əsas məqsədimiz medianı cəmiyyətdə sözün həqiqi mənasında öz yerində, öz ictimai missiyasında görməkdən ibarətdir"**

**Q.Məhərrəmli bildirib ki, media ümumi anlayışdır:** ”Çap mətbuatını, onlayn medianı, televiziya və radio istiqamətini ayrılıqda təhlil edə bilərik. Amma gəldiyimiz ümumi qənaət ondan ibarətdir ki, onlayn media daha üstün imkanlara malikdir. Bəzi televiziyalarımızda da irəliləyiş nəzərə çarpır. Həm estetik dizayn, həm ictimai müzakirələrin təşkil olunması baxımından müsbət nüanslar var. İnternet məkanında yutub kanallarının sürətli yüksəlişini görürük və bunu heç cür danmaq olmaz. Hətta bir çox hallarda yutub kanalları peşəkar televiziyalarla ciddi şəkildə rəqabət apara bilir. Ümumi mənzərə bundan ibarətdir. Amma medianın əsas klassik funksiyaları var ki, bunlar cəmiyyəti məlumatlandırmaqla, maarifləndirməklə, həmçinin, ictimai nəzarət funksiyasını yerinə yetirməklə bağlıdır. Bütün bunlarla bağlı müəyyən müsbət məqamlarla yanaşı, nöqsanlar da var. Əsas məqsədimiz medianı cəmiyyətdə sözün həqiqi mənasında öz yerində, öz ictimai missiyasında görməkdən ibarətdir”.

**Ekspert diqqətə çatdırıb ki, televiziyalarla bağlı müəyyən problemlər var:** ”Son dövrlər bu məsələ ətrafında diskusiyalar aparılır. Bu istiqamətdə ciddi addımlar atılmalıdır. Şou proqramlarında baş verən özbaşınalıqlar, aparıcı məsuliyyətsizliyi diqqətdən yayınır. Media dedikdə, xüsusən, Milli Mətbuat Günündə əsasən yazılı mətbuatı nəzərdə tuturuq. Ümummilli qəzetlərə ehtiyacımız var. Mətbuatın yüksək şəkildə tərəqqisinə nail olmaq üçün Azərbaycanda azad medianın inkişafına daha çox şərait yaratmalıyıq. Bütün dünyanın təcrübəsi onu göstərir ki, mətbuat müstəqil olarsa, cəmiyyətə daha çox fayda verə bilər. Hansısa siyasi partiya mənsubu olan, biznes qurumundan asılı olan, yaxud hansısa dairəyə bağlı fəaliyyət göstərən mətbuat cəmiyyətə arzulanan faydanı verə bilməz. Ona görə də media sahəsində əsas işimiz müstəqil mətbuatı inkişaf etdirməkdir. Nə yaxşı ki, Medianın İnkişafı Agentliyi yarananda, nizamnaməsi qəbul olunanda orada aparıcı tendensiyalardan biri kimi məhz söz və mətbuat azadlığı kontekstində azad medianın inkişafı nəzərdə tutulub. Bayram günü olduğuna görə problemlərdən çox danışa bilmirik. Amma arzulayardıq ki, mediada peşəkarlıqla, jurnalist əxlaqı, peşə etikasının gözlənilməsi və cəmiyyət qarşısında məsuliyyətin dərk olunması ilə bağlı mövcud olan bir sıra nöqsanlar tezliklə aradan qalxsın. O zaman yaxşı və keyfiyyətli media haqqında danışa bilərik”.

**İsmayıl Qocayev**





# Bakıda İsrail və İran səfirləri söz duelinə çıxdılar

## Abbas Musəvinin Corc Dikin paylaşımına münasibəti terrora çağırışdır

**İranın Ali dini lideri Seyid Əli Xameneinin ”Twitter”də paylaşdığı tviti sosial şəbəkələrin Azərbaycan seqmentində birmənalı qarşılanmayıb. Xamenei öz tvitində Azərbaycanı Qarabağa nəzarəti bərpa etməsinə görə təbrik etsə də, Ermənistanla sərhədlərin dəyişdirilməsi və İran-Ermənistan sərhədlərinin blokadaya düşməsini İran İslam Respublikasının əsla qəbul etməyəcəyini vurğulayıb.**

Bundan sonra İsrailin Azərbaycandakı səfiri Corc Dik tvitter hesabında Güneylə bağlı diqqətçəkən paylaşım edib. Səfir ”Təbrizin sehrli nağılları” kitabını oxuyarkən çəkilən fotosunu bu sözlərlə paylaşıb: ”Bu yaxınlarda mənə ərmağan edilən bu möhtəşəm kitabda Təbrizdə Azərbaycan tarixi və mədəniyyəti haqqında çox şey öyrənirəm. Bəs siz bu günlərdə nə oxuyursunuz?”. İranın Azərbaycandakı səfiri Abbas Musəvi də İsrailin Azərbaycandakı səfirinin paylaşımına cavab verib. Musəvinin reaksiyası belə olub: ”Bu macəraçı oğlancığazın məlumatı üçün: Bizim əziz Təbrizimiz İranın qürurlu tarixində ilklər diyarı kimi tanınır. Görünür, ilk şər sionisti də qeyrətli Təbriz camaatı dəfn edəcək. Qırmızı xəttimizi heç vaxt keçmə, heç vaxt!”.

**Siyasi şərhçi Elçin Mirzəbəyli ”Şərq”ə bildirib ki, İsrailin Azərbaycandakı səfiri Corc Dikin ”Təbrizin sehrli nağılları” kitabı ilə bağlı paylaşımında İran adlı ölkənin rəsmi dairələrini narahat edə biləcək və diplomatik normaları pozan heç nə yoxdur.** Ekspertin sözlərinə görə, Təbrizin Azərbaycan tarixinin və mədəniyyətinin ayrılmaz bir parçası olduğu danılmaz həqiqətdir və bu məqam İran rəsmilərinin açıqlamalarında da qeyd olunur: ”Digər tərəfdən, İsrail səfiri öz paylaşımında dövlətlərin ərazi bütövlüyündən, yaxud bu xüsusda olan hansısa iddialardan deyil, mədəniyyət və tarixdən söz açır. Harada yaşamasından asılı olmayaraq, bütün Azərbaycan türklərinin, azərbaycanlıların tarixi və mədəniyyəti birdir. Bu anlayışları beynəlxalq hüququn müstəqil subyektlərinin suveren hüquqları, sərhədləri kontekstindən dəyərləndirmək absurddur. Eynilə xəstə, ultramillətçi, gerçəkliklə uzlaşmayan, bəsit erməni təfəkkürünün təkrarıdır. Azərbaycan xalqının dili də, mədəniyyəti də, tarixi də, ədəbiyyatı da, folkloru da, o cümlədən nağılları da birdir! Və bu danılması mümkün olmayan tarixi həqiqətdir. Amma Xameneinin İranın Ermənistanla min illik sərhədlərindən danışması həqiqətdən min illərlə məsafədə dayanan bir yanaşmadır. Tarixin, həmçinin hazırda İran İslam Respublikası adlanan beynəlxalq hüququn müstəqil subyektinin tarixinin saxtalaşdırılmasıdır. Maraqlıdır, ağaye Xamenei nə üçün ermənilərin Azərbaycan Respublikasına qarşı ərazi iddialarına münasibət bildirmir. Axı o, özünü müsəlmanların bir qisminin dini lideri hesab edir. Məgər Qarabağ müsəlmanların torpaqları deyil?”.

*E.Mirzəbəyli qeyd edib ki, İranın Azərbaycandakı səfiri Abbas Musəvinin İsrailin Bakıdakı səfiri Corc Dikin paylaşımına münasibətdə sərgilədiyi mövqe isə terrora çağırışdır:* ”Musəvi öz paylaşımında bildirir ki, ”görünür, ilk xəbis sionisti də Təbrizin qeyrətli əhalisi dəfn edəcək”. Bu, konkret təhdiddir və hüquqa zidd davranışdır. Digər tərəfdən, hər iki səfirə məsləhət görərdim ki, öz mesajlarını hətta sösial şəbəkələr vasitəsilə olsa da belə, gedib öz dövlətlərinin ərazisindən paylaşsınlar”.

**İsmayıl Qocayev**

# İraq təxribatı Türkiyəni yolundan döndərə bilməz

## “Türkiyə, Rusiya və İran dərd ortaqlarıdır. Hər üç ölkənin ciddi məqamlarla bağlı ortaq maraqları üst-üstə düşür”



**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin Silahlı Qüvvələrinin İraqda guya dinc sakinləri atəşə tutmasına dair yayılan məlumatlara münasibət bildirib. Nazir belə informasiyaların həqiqət olmadığını söyləyib: ”Türkiyə Silahlı Qüvvələrindən aldığımız bilgiyə görə, İraqın Duhok bölgəsində dinc sakinlərə qarşı hər hansısa hücumumuz olmayıb.**

Bu hücumla bağlı Türkiyəni ittiham edən və ləkələyən xəbərlər də var. Biz açıqlamamızda bunu açıq şəkildə təkzib etmişik, daha doğrusu, bütün dünya bilir ki, Türkiyə heç vaxt dinc əhaliyə qarşı əks-hücum keçirməyib”. Çavuşoğlu qeyd edib ki, Türkiyə beynəlxalq hüquq normalarına uyğun olaraq terrorla mübarizəmizi davam etdirir: ”Heç bir mülki şəxsə hücum etməmişik. Hədəfimiz Suriyadakı terror təşkilatları olub. Əməliyyatlarımız İraqda həmişə terror təşkilatlarına qarşı yönəlib. Terror təşkilatları tərəfindən həyata keçirildiyini düşündüyümüz bu xain hücumla bağlı İraq rəsmiləri ilə əməkdaşlıq edə biləcəyimizi də açıqladıq. Türkiyəyə qarşı ittihamları rədd edirik və bəyanatları rədd edirik”. Qeyd edək ki, iraqlılar Türkiyə ərazisindən açılan artilleriya atəşi nəticəsində 8 nəfərin öldüyünü, 23 nəfərin isə yaralandığını iddia ediblər. Yüzlərlə adam səfirliyə hücum etməyə cəhd göstərib, türk bayrağını yandırıblar. Türkiyənin təhlükəsizlik qüvvələri İraqın şimalında mülki sakinlərin ölümü ilə nəticələnən hadisəni PKK terror qruplaşmasının törətdiyini açıqlayıb. Rəsmi Ankara hadisənin araşdırılması üçün bütün imkanlardan istifadə edəcəyini açıqlayıb. Rəsmi Bağdad isə İraqın Duhokun dağlıq ərazisində baş verən hadisə ilə əlaqədar Türkiyədəki səfiri Hüseyin El-Hatibini geri çağırıb. Xatırladaq ki, sözügedən gərginlik Türkiyə və Rusiya liderlərinin İrana səfərindən, üç ölkə başçısının mühüm görüşlərindən sonra gündəmə gəlib.

**AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə deyib ki, beynəlxalq güclər Türkiyə, Rusiya və İranın bir araya gəlməsində maraqlı deyil. Partiya rəhbərinin sözlərinə görə, oturuşmuş güclər yeni siyasi konfiqurasiyada özlərinə rəqib güclərin meydana çıxmasını istəmirlər:** ”Türkiyə, Rusiya və İran, o cümlədən digər bir neçə dövlətin bir araya gəlməsi yeni hərbi-siyasi güc mərkəzinin yaranmasıdır. Mümkündür ki, İran və Türkiyə münasibətlərinin gərginləşməsi üçün hansısa üçüncü tərəf təxribata əl atsın. Bu, mümkündür. Hazırda Rusiya-Türkiyə, o cümlədən İran-Türkiyə münasibətlərinin kəskinləşməsi Qərbə, ABŞ və Avropaya sərf edir. Əgər Tehran hökuməti Şimali İraqdakı terror hadisəsində əlinin olmadığını Ankaraya sübut etmək istəyirsə, müəyyən addımlar ata bilər. Məsələn, Türkiyənin terrorçu qruplarla bağlı haqlı tələblərini qəbul edər. Xoşməramlı siyasi-hərbi addımlar ata bilər. Ancaq hələlik bunu görmürük. Ümumiyyətlə, İran və Rusiya Türkiyə ilə münasibətlərdə səmimi deyil. Bu dövlətlər uzun müddət qlobal güclərin incik saldığı, siyasi-iqtisadi təzyiqlərə məruz qalmış ölkələr olublar. Reallıq isə odur ki, Türkiyə, Rusiya və İran dərd ortaqlarıdır. Hər üç ölkənin ciddi məqamlarla bağlı ortaq maraqları üst-üstə düşür. Moskva və Tehran çalışmalıdır ki, Türkiyə ilə əlaqələr səmimi və etibarlı zəmində oturuşsun. Çünki hər iki ölkənin xilası Türkiyə ilə əməkdaşlıqdan çox asılıdır. İndiki halda İran və Rusiya ilə münasibətlərin normallaşması Türkiyə üçün də faydalıdır”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;**



# "Fəal QHT-lərin mütləq əksəriyyətinin adını qaliblər sırasında görürük"

## Cəsarət Hüseynzadə: "Dövlətin dəstəyi nəticəsində vətəndaş cəmiyyətləri fəaliyyətlərini qismən də olsa genişləndirə biliblər"

**Vətəndaş cəmiyyətinin inkişafı hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biridir. Azərbaycanda son illər müşahidə olunan sosial-iqtisadi inkişaf dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlər modelinin müasirləşdirilməsini, milli maraqların qorunması sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təşviqini zəruri edir.**

Ölkəmizdə böyük QHT şəbəkəsi formalaşıb və bu hərəkatın iştirakçıları müstəqil Azərbaycanımızın və xalqımızın mənafeyini hər şeydən üstün tutaraq dövlətimiz ətrafında sıx birləşiblər. Qeyri-hökumət təşkilatları ölkəmizin inkişafına öz töhfələrini verirlər. Ümumiyyətlə, QHT-lər problemlərin aktuallaşdırılmasında, ictimai müzakirələrin təşkilində böyük rol oynayırlar. Şübhəsiz, vətəndaş cəmiyyətinin uğurlu və faydalı fəaliyyətinin təmin etmək üçün onlara mütəmadi maliyyə dəstəyi göstərilməlidir. Azərbaycan dövləti vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət və qayğı göstərir. Çünki dövlət quruculuğu prosesi yalnız dövlət aparatında çalışan məmurlar vasitəsilə deyil, həm də vətəndaş cəmiyyətinin peşəkar təmsilçilərinin fəaliyyətindən də çox asılıdır. Bu baxımdan müvafiq dövlət qurumları qrantlar verməklə, ictimai nəzarət prosesini gerçəkləşdirməklə, müxtəlif layihələrdə QHT-ləri əməkdaşlığa cəlb etməklə vətəndaş cəmiyyəti prosesinə töhfə verməyə çalışırlar. İctimai sektorun inkişafına töhfə verən qurumlardan biri Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyidir. Qısa müddətdə yaranmasına baxmayaraq, müxtəlif işlər həyata keçirən Agentlik bu sahədə tənzimləmələr həyata keçirir. QHT-lər arasında layihə müsabiqələrinin keçirilməsi, onlarla təşkil edilən görüşlər, regional müşavirə-məsləhətləşmələri də bu qəbildən olan çalışmalardır. Bütün bu fəaliyyətləri vətəndaş cəmiyyətində daha yaxşı nəticələrin əldə edilməsi istiqamətində axtarışlar kimi də səciyyələndirmək olar. Son bir ay ərzində Agentlik elan etdiyi iki qrant layihəsinin nəticələrini açıqlayıb. İyun ayında "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin nəticələrini elan edilib. Qrant müsabiqəsinə 8 istiqamət üzrə 227 layihə təqdim olunub. 22 layihənin maliyyələşdirilməsi haqqında Agentliyin Müşahidə Şurası qərar qəbul edib. Ümumilikdə 22 layihəyə 585 min 170 manat qrant vəsaiti ayrılıb. Ən böyük vəsait Azərbaycan Qadın Sahibkarlığını İnkişafı Assosiasiyasının layihəsinə (40 min 100 manat), ən kiçik məbləğ isə İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyinə (15 min 550 manat) ayrılıb. Ötən gün isə Agentlik 2022-ci il qrant müsabiqəsində ailə, qadın, uşaq və gender məsələləri istiqaməti üzrə 37 qeyri-hökumət təşkilatının layihəsinə ümumilikdə 330 min manatdan çox vəsait ayrılıb. Layihələr çərçivəsində Bakıda və regionlarda 10-larla tədbir keçirilib, müxtəlif maarifləndirmə materialları hazırlanıb. Bir məqamı da qeyd edək ki, Agentliyin qrant müsabiqəsindən razı qalan QHT-lərlə yanaşı, narazılıq bildirənlər də olub.

**Qeyri-Hökumət təşkilatlarına dövlət tərəfindən göstərilən maliyyə dəstəyi və elan olunmuş qrant layihələri ilə bağlı "Şərq"ə danışan "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə deyib ki, hər müsabiqədən razı və narazı qalan tərəflər olur.** QHT rəhbərinin sözlərinə görə, ümumilikdə baxdıqda QHT Agentliyinin kiçik qrant müsabiqəsi ilə bağlı kiçik qrant müsabiqəsinin nəticələrini açıqlayıb. Qeyd olunub ki, qrant müsabiqəsinə 7 istiqamət üzrə təqdim olunan 584 layihənin 400-ü Agentlik tərəfindən maliyyələşdirilib.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları cəmiyyətin bütün sferalarının inkişafı, tərəqqisi üçün öz layihələri ilə töhfə verməyə çalışırlar. Agentlik bütün sahələr üzrə fəaliyyət göstərən QHT-lərin layihələrinə müxtəlif formalarda dəstək olur. Xüsusilə qeyd olunub ki, məişət zorakılığı ilə mübarizə, ailə dəyərlərinin təbliği, uşaq hüquqlarının qorunması, qadınlara qarşı ayrı-seçkilik məsələləri Agentliyin gündəmindədir və qrant müsabiqələrində mövzu kimi elan edilir. A.Əliyeva əlavə edib ki, 2021-ci il kiçik elan etdiyi nəticələr ilə bağlı böyük iradlar yoxdur: "Biz təqdim olunan layihələrlə tanış olmadığımız üçün hər hansı qərarı mübahisələndirə bilmərik. Sadəcə, fikirlərimizi hər hansı QHT-nin fəaliyyəti və ictimai nüfuzu baxımından səsləndirə bilərik. Qərarların qəbulunda bu məqam sadəcə bir nüansdır. Ona görə nəticələrlə bağlı hər hansı münasibət bildirmək doğru olmaz. Fəallığı ilə seçilən QHT-lərin mütləq əksəriyyətinin adını qaliblər sırasında görürük. Eyni zamanda hesab edirəm ki, Müşahidə Şurasının üzvləri QHT-lərlə işi bir qədər də inkişaf etdirməlidir. Düzdür, onların resursları, imkanları yetərli deyil. Dünyanın heç bir ölkəsində qrant nəticələri ilə bağlı etirazlar demək olar ki, qəbul edilmir. Amma hesab edirəm ki, dövlət büdcəsi vəsaiti olduğu üçün müsabiqədən hansısa QHT narazı qalarsa, onların fikirlərini dinləmək lazımdır və ehtiyac yarandığı halda QHT Agentliyi öz qərarlarını əsaslandırmalıdır".

**C.Hüseynzadə vurğulayıb ki, Agentliyin QHT-lərə maliyyə dəstəyi sadəcə QHT-lərin minimum tələblərini ödəyir. Burda da məqsəd QHT sektorunun sıradan çıxmasının qarşısını almaqdır:** "Bu baxımdan maliyyə dəstəyi çox önəmlidir. QHT-lərimiz dövlətin bu cür dəstəyi nəticəsində ilkin fəaliyyətlərini qurub və fəaliyyətlərini qismən də olsa genişləndirə biliblər. Uzun müddətdir, dövlət tərəfindən bu dəstək stabil olaraq davam edir. Amma bu dəstəyin həcminin artırılmasına ciddi ehtiyac var. Müvafiq qurumların açıqlamalarından belə görünür ki, növbəti ildə bununla bağlı irəliləyiş ola bilər. Artıq QHT Agentliyi təşkilatlar üçün təlimlər təşkil etməklə bağlı prosesə başlayıb. Əsas məqam kimi də Agentliyin növbəti mərhələlərdə kiçik, orta və böyük qrantlar üçün fərqli meyarlar və fərqli layihə təklifi formaları müəyyən edəcəyi qeyd olunur. Bu hədəflərə nail ola bilsək, sözün həqiqi mənasında QHT-lərin fəaliyyətinin genişlənməsi üçün çox böyük töhfə olar".

*QHT sədri hesab edir ki, xarici maliyyə mənbələrinə çıxışın təmin olunması gerçəkləşərsə, QHT Agentliyi üçün də öhdəlik bir qədər azalar:* "Xarici mənbələrə çıxışın bir qədər asanlaşması istiqamətində prosesin getdiyi məlumdur. Ümid edək ki, hər 2 məqam - QHT Agentliyinə ayrılan vəsaitin artırılması və xarici mənbələrə çıxış məsələsi QHT-lərin xeyrinə öz həllini tapacaq. Etiraf edək ki, minimum maliyyə və digər kiçik resurslarla uğurlu fəaliyyət QHT Agentliyi üçün də çətindir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Bütün inqilablar Təbrizdən başlayıb

## İsrail səfirinin mesajı iranlı diplomatın diqqətindən yayınmadı, amma cavabı uğursuz oldu

**Ötən gün İsrailin və İranın ölkəmizdəki səfirlərinin tvitləri gündəm olub. İsrailin Azərbaycandakı səfiri Corc Dik öz tviter hesabında oxuduğu kitab haqqında paylaşım edib.**

"Bu yaxınlarda oxumağa başladığım bu möhtəşəm kitabdan Təbrizdə Azərbaycan tarixi və mədəniyyəti haqqında çox şey öyrənirəm. Bu günlərdə nə oxuyursunuz?",- deyə səfir qeyd edib. Görüntülərdə diplomatın "Təbrizin sehrli nağılları" kitabını oxuduğu əks olunub.

İran səfiri isə paylaşıma verdiyi gözlənilməz və sərt reaksiya ilə diqqətləri öz üzərinə çəkib. Səfir Seyid Abbas Musəvi İsrail səfirinin bu paylaşımını ölkəsinə qarşı təxribat hesab edərək, ona cavab verib: "Bu təşəbbüskar oğlanın nəzərinə: bizim sevimli Təbriz İranın qürurlu tarixində birincilər ölkəsi kimi tanınır. Görünür, ilk şər sionistini də Təbrizin qeyrətli sakinləri dəfn edəcəklər. Bizin qırmızı xəttimizi heç vaxt keçməyin, heç vaxt!".

**Səfirlərin qarşılıqlı tvitlərini "Şərq"ə şərh edən siyasi şərhçi Turab Rzayev bildirib ki, İsrail səfiri Corc Dikin tviti mesaj xarakteri daşıyır:**

"Bu mesaj kifayət qədər aydın idi. Tvitdə əsas vurğulanan məsələ "Təbrizin sehrli nağılları" miniatür kitabıdır. Burada xüsusi məsələ yoxdur. Ancaq bu kitabı oxuyub, şəkil kimi paylaşması və Azərbaycanın tarixi və mədəniyyətinə aid nəsnələri oxuduğunu bildirməsi əlbəttə ki, İranı ciddi narahat edir. İran heç bir halda Təbrizin Azərbaycanla adının çəkilməsini istəmir. Hətta Təbriz, İran Azərbaycanının paytaxtı olsa belə, İran Təbrizi, ümumiyyətlə, Azərbaycanı fars mədəniyyətinin, tarixinin bir hissəsi kimi görür. İsrail səfirinin bunu Azərbaycan tarixi kimi təqdim etməsi aydın məsələdir ki, İran üçün ciddi mesaj oldu və narazılıq yaratdı. Halbuki, indiyə qədər heç bir xarici səfir bu addımı atmayıb. Britaniya səfiri belə, Araz çayını ziyarət edərkən, tvitı "salam, İran" sözləri ilə paylaşmışdı. Bu tvitdən başqa mənalar da çıxarmaq olar. Təbrizin sehirli nağıllarını əslində sehirli nağıllar gerçək olur kimi də yozmaq mümkündür. Lakin istənilən halda məsələ Təbrizin Azərbaycan tarixi və mədəniyyətində oynadığı rol ilə bağlıdır. Son dövrlərdə bu kitabın oxunması ciddi mesaj sayılır".

İran səfirinin cavab tvitini qeyri-professional hesab edən T.Rzayev qeyd edib ki, açıq şəkildə sionizmə qarşı təhdid görülür: "Tvitdə bundan əlavə Təbrizin İran tarixində oynadığı rol ilə bağlı xatırlatma var. Düşünürəm ki, çox uğursuz cavab oldu. Ən azı burada Azərbaycana aid nəsə mesaj verilə bilərdi. Məsələn, elə Təbrizin Şərqi Azərbaycanın mərkəzi olması və eyni zamanda, İran mədəniyyətinin parçası olması ilə bağlı cavab ola bilərdi. Amma görünür ki, cənub qonşumuz Azərbaycan ilə Təbriz sözünü birgə işlətməkdən o qədər çəkinir ki, sadəcə, "Təbriz İrandır" yanaşması sərgilədi. Qəribəsi odur ki, biz daha çox "İran Təbrizdir" kimi yanaşma müşahidə etdik, nəinki Təbriz İrandır.

Əslində diqqətlə baxsaq, görərik ki, İran ərazisində bütün inqilablar məhz Təbrizdən başlayıb. Ona görə yeni dəyişikliyin mərkəzi və simvolu da çox güman ki, Təbriz olacaq. Bundan yaranan qorxu ola bilsin ki, İranın və indiki teokratik rejimin kabusudur. Düşünürəm ki, bu da səfirin kifayət qədər tələsik, kobud sərt cavab verməsinin səbəbi olub".

**Çimnaz Şahlar**

# Qlobal ərzaq qıtlığı böyük güclər tərəfindən süni yaradılır

## Rusiya-Ukrayna müharibəsindən də əvvəl alternativ qida məsələsi gündəmdə idi

**Birləşmiş Millətlər Təşkilatı bütün planetdə aclığın olacağını proqnozlaşdırır. BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Devid Bizli bildirib ki, dünya ictimaiyyəti hazırkı ərzaq böhranına məhəl qoymasa, kütləvi aclıq, siyasi sabitlik və nəzarətsiz miqrasiya ilə üzləşmək riski var. "Biz artıq görünməmiş böhranla üz-üzəyik. Onunla strateji və effektiv şəkildə mübarizə aparmasaq, kütləvi qıtlıq, onlarla ölkədə sabitliyin pozulması və kütləvi miqrasiya ilə üzləşəcəyik".**



*Azərbaycanın üstünlüyü odur ki, dünyada qıtlığı gözlənilən məhsulları ixrac edən ölkələrlə münasibətlərimiz yaxşıdır*

Gələn il vəziyyətin indikindən xeyli pis olacağının elanını verən BMT-nin nümayəndəsi dünya birliyinin növbəti 6-12 ay ərzində ərzaq qiymətlərinin artması səbəbindən çətinlik çəkəcəyini də ehtimal edib. Bundan sonra problemi həll etmək mümkün olmasa, dünya ərzaq qıtlığı ilə üzləşə bilər.

Bizlinin sözlərinə görə, vəziyyət digər məsələlərlə yanaşı, Rusiya Federasiyası və Belarusdan dünya bazarlarına gübrələrin tədarükünə qoyulan məhdudiyyətlərə görə gərginləşib.

Qeyd edək ki, Azərbaycanda ərzaq qıtlığı müşahidə edilməsə də, əsas ərzaq məhsulları üzrə idxaldan asılılığın tam və ya əsasən aradan qaldırılması daha da prioritetləşib. Mövzu ilə əlaqəli rəy verən ekspertlər hesab edir ki, ölkələrin ərzaq təhlükəsizliyi məsələlərinin gündəm olması, qıtlıqla əlaqədar BMT-nin vaxtaşırı verdiyi açıqlamalar və ümumilikdə perspektivdə 70 milyona yaxın insanın aclıqdan əziyyət çəkməsilə bağlı verilən proqnozlar alternativ qida istehsalçılarını hərəkətə keçirib.

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri Elçin Bayramlının "Şərq"ə açıqlamasına görə, iki ildən çoxdur dünyada aclıqla bağlı həyəcan təbili çalınır:** "Uzun müddətdir bizi gözləyən qlobal ərzaq böhranı ilə bağlı xəbərdarlıq xarakterli yazılar yazırıq. Yaxın illərdə süni qiymət artımı və qıtlıq açqılmaz olacaq. Bu nə pandemiya, nə də Rusiya-Ukrayna müharibəsi ilə əlaqəli deyil. Qlobal ərzaq qıtlığı böyük güclər tərəfindən süni yaradılan bir prosesdir. Məhz Rusiya-Ukrayna müharibəsindən də əvvəl alternativ qida məsələsi gündəmdə idi. Dünya ərzaq böhranı ilə üz-üzə qaldığı vaxtda, digər tərəfdən də müharibənin baş verməsi ərzaq təhlükəsizliyi məsələsini daha da qabardıb.

Son vaxtlar böyük qida müəssisələrinin, anbarlarının qəsdən yandırılması da bu prosesin bir mərhələsidir. Haradasa 40-dan artıq böyük anbar yandırılıb. Hamısı ərzaq təhlükəsizliyinin ətrafında qurulan senarinin tərkib hissəsidir. Təbii ki, iqlim dəyişikliyi və qlobal istiləşmənin müəyyən təsiri var".

Azərbaycanın gözlənilən ərzaq böhranından maksimum az təsirlənməsi üçün atmalı olduğu addımlara gəldikdə isə ekspert deyib ki, bu təhlükədən ancaq ərzaq idxalından asılı olmayan ölkələr sığortalana bilər: "Azərbaycan üçün qıtlıq təhlükəsi orta həddədir. Ərzaq təhlükəsizliyinin 50 faizi idxaldan asılıdır.

Üstünlüyümüz odur ki, dünyada qıtlığı gözlənilən məhsulları ixrac edən ölkələrlə münasibətlərimiz yaxşıdır. Rusiya, Qazaxıstan, Belarusiya, İran, Türkiyə kimi ölkələrdən çatışmayan məhsulları idxal etmək imkanlarımız genişdir. Meyvə-tərəvəzə olan tələbatımızı da yerli istehsalla ödəmək mümkündür. Emal-sənaye məhsulları ilə bağlı idxaldan asılılığımız çoxdur. Dəfələrlə yerli istehsalın artırılması ilə bağlı öz təkliflərimizi irəli sürdük. Sözün düzü, kənd təsərrüfatının inkişafı, fermerlərin fəaliyyətinin stimullaşdırılması ilə bağlı dövlət tərəfindən mühüm qərarlar verilib, maliyyə yardımları da edilib. Amma Kənd Təsərrüfatı Nazirliyi aqrar siyasəti düzgün qura bilmədiyi üçün əsas istehlak malları üzrə ildən-ilə idxaldan asılılığımız artır. Söhbət ət -süd məhsulları, taxıl - paxlalı kimi konservləşdirilmiş məhsullardan gedir. Bunun da səbəbi yerli istehsala edilən süni əngəllər, bəzən də iqlim şəraitinin əlverişsiz olmasıdır. Azərbaycanda kənd təsərrüfatının inkişafına nail olmaq üçün aqrar sığorta sistemi, satış bazarları düzgün formalaşdırılmalı, məhsul xammal kimi satılmamalıdır. Onun emalı üçün lazımi avadanlıqlar alınmalı, suvarmada olan çətinliklər aradan qaldırılmalıdır.

Növbəli əkin sistemi tətbiq olunmalıdır. Hamı hər il eyni şey əkir. Bu zaman da torpaq qüvvədən düşür və məhsuldarlıq aşağı düşür. Sovet dövründəkinə oxşar planlı təsərrüfat yanaşması tətbiq olunmalıdır. Yəni hansı əsas məhsullar üzrə yerli istehsalımız azdırsa, nazirlik onun əkinini, istehsalını stimullaşdıra bilər. Yoxsa bir məhsul lazım olandan xeyi artıq əkilir, digəri xeyli az əkilir. Axı kəndli, hətta iri təsərrüfatlar belə bilmir ki, bu il ölkədə hansı məhsuldan çox əkilib, ya az əkilib". E.Bayramlının fikrincə, balanslı istehsal təşkil olunsa əsas ərzaq məhsulları ilə özümüzü təmin edə bilərik: "Düzdür, taxılla özümüzü təmin edə bilmirik, tələbatın təxminən yarısını xaricdən alırıq. Burada da problem yoxdur. Rusiya və Qazaxıstandan taxıl idxalı dayanmayacaq. Amma buna da tam ümidli olmayıb yerli istehsal stimullaşdırılmalıdır. Çünki taxıl idxal etməklə böhrandan sığortalana bilərik, lakin bahalaşmadan yox. Heyvandarlıq üçün yemlərin də bahalaşması dolayı yolla digər ərzaq məhsullarının qiymətini artıracaq - quşçuluq və heyvandarlıq məhsullarının ilin sonuna qədər artması gözlənilir. Bu ilin sonuna qədər unun və çörəyin qiymətinin 2 dəfə bahalaşacağı ehtimalı yüksəkdir. Ona görə də yerli taxıl istehsalını vaxtında artırmaq lazım idi. Qarabağda işğaldan azad olunan torpaqların əkilməsindən əldə olunacaq 150-200 min ton taxıl idxalın yalnız 10 faizini kompensasiya edə bilər. Lakin bu buğdanın çörək istehsalına yararlı olması da əsas şərtdir. Hazırkı vəziyyətdə hökumətin bir yolu qalır, o da subsidiyalar və dotasiyalar, gübrə təminatı ilə bağlı fermerlərə ciddi dəstək verilməlidir. Aqrar sektorda işləyən sahibkarlara güzəştli və uzunmüddətli kreditlərin həcmi xeyli artırılmalıdır.

Bir sözlə, dünyanı gözləyən aclıq bəlasından sığortalanmaq üçün Azərbaycanın potensialı var. Sadəcə bu potensialı yaxşı dəyərləndirmək və bacarıqlı mütəxəssislərə işləmək lazımdır".

**Şəymən**

# Günvurma təkcə fəhlələrin dərdi deyil

## Havanın temperaturu 41 dərəcə çatırsa, bütün növ işlər dayandırılmalıdır



**Yayın problemi təkcə isti hava, məzuniyyət, zəhərlənmə, günvurma deyil. Həm də isti havalarda, həm də açıq şəraitdə - günəş şüalarının birbaşa təması altında çalışmağa məcbur qalmaqdır. Paytaxtda son 1-2 gündə küləkli hava müşahdə edilir və bu, temperaturu nisbətən aşağı salıb.**

Lakin küləkli günlərdən əvvəl və yəqin ki, küləkli havalar çəkilib gedəndən sonra yenə qızmar istilər oalcaq. Və biz yenə də qızmar havada açıq şəraitdə - tikintidə, yol çəkilişlərində, müxtəlif abadlıq və təmizlik və qazma işlərində çalışanların günün altında "qovrulduğunu" görəcəyik. Kimsə də, "bu yazıq fəhlələri niyə günün altında işlədirsiniz?" deyə sorğu-sual etməyəcək, fəhlənin hüquqlarını qorumayacaq. Halbuki ölkədə Dövlət Əmək Müfəttişliyi, Həmkarlar Konfederasiyası adlı qurum da var. Əmək Məcəllısi də öz yerində. Elə məsələnin çıxılmaza düşməsinin əsas səbəblərindən biri də neçə dərəcə temperaturda işlərin dayandırılmasıyla bağlı Əmək Məcəlləsinə bir neçə il əvvəl edilmiş dəyişiklikdir.

**Hüquqşünas Azər Quliyev bildirir ki, əmək qanunvericiliyinə görə, havanın temperaturu 41 dərəcə selsidən çox olduqda işçilərin həyat və sağlamlığını qorumaq məqsədilə zəruri tədbirlər görmək işəgötürənin əsas vəzifələrindən biridir.** Havanın temperaturu 41 dərəcə selsidən çox olarsa, istər açıq havada, istərsə də sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. İşçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır. Fəhlənin işini çətinləşdirən də məhz bu dəyişiklikdir. Əvvəllər işlərin dayandırılması üçün ən yüksək hədd 38 dərəcə qeyd edilmişdi. Çünki hava proqnozu, məlum olduğu kimi kölgədə hesablanır. Kölgədə havanın temperaturu 38 dərəcədirsə, deməli, açıq havada azı 40-42 dərəcədir. Və bu, işlərin dayandırılması üçün yetərli hesab edilirdi. Açıq havada, əlbəttə, 40-42 dərəcə istidə çalışmaq insan həyatı üçün təhlükə daşıyır. Amma sonra nəyə görəsə, son hədd 41 dərəcəyə qaldırıldı və Əmək Məcəlləsinə də bununla bağlı dəyişiklik edildi. Kölgədə 41 dərəcə isti günəş şüaları altında 44-45 olar yəqin. Belə temperaturda işləmək aşkar ölüm təhükəsidir. Dərd budur ki, hətta temperaturun 39-40 dərəcə elan edildiyi zamanlarda da bəzi işəgötürənlər işləri dayandırmır, fəhləri işlədir.

***Hətta qapalı məkanlarda da işə fasilə verilməlidir. Çünki uzun müddət sərinlədici altında çalışmaq sağlamlığa ziyandır***

*Ekspert bildirir ki, Əmək Məcəlləsinə görə havanın yüksək temperaturu müşahidə edildiyi zaman işlər dayandırılmalıdır:*

- Hətta qapalı məkanlarda da işə fasilə verilməlidir. Çünki uzun müddət sərinlədici altında çalışmaq sağlamlığa ziyandır. Qızmar istilərdə sərinlədicilər - kondisionerlər də havanı normal sərinlədə bilmir, elektrik şəbəkələri yüklənir və bu da yanğın, partlayış təhlükəsi yaradır. Qanunvericiliyə uyğun olaraq fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir. İşəgötürən Əmək Məcəlləsinin tələblərinə əməl etmirsə, işi dayandırmırsa, bu, qanun pozuntusu deməkdir. Dövlət Əmək Müfəttişliyi buna görə cərimə tətbiq edə bilər. Cərimənin miqdarı 500-1000 manat ola bilər.

Amma DƏM Xidmətinin iş yerlərində yoxlama aparmaq imkanı yoxdur. Ekspert A.Quliyev deyir ki, qurum bu durumda sadəcə daxil olan şikayətləri araşdıra bilir: - Təəssüf ki, bu, bəzi hallarda ya baş vermir, ya işçilərin əleyhinə qərarlar verilir, ya da məhkəməyə müraciət etmək məsləhət görülür.

**Məlahət Rzayeva**



# Çoxlu vitamin həbləri qəbul etmək ziyanlıdır

## Amma meyvələri nə qədər çox yesək bədənimiz lazım olan qədər vitamini mənimsəyəcək

**"Vitaminlərin insan bədəninə faydalılığı və artıqlığının zərərlərini hamımız bilməliyik, çünki vitaminlərin insan həyatında çox vacib bir faydası var, amma artıqlığının da olduqca çox ziyanları ola bilər.**

"Azərbaycan ailəsi uşaqlarına vitamin alıb verməlidirmi və ya vitamin çatışmazlığını hansı meyvələrdən, tərəvəzlərdən ala bilər? Vitamin həblərini çox qəbul etdikdə nələr ola bilər? Hansı ziyanları görə bilərik?", kimi suallara vitaminlər haqqında yazdığım məqalədən cavab tapacaqsınız". Bu sözləri fitoterapevt Füzuli Hüseynov səsləndirib. F.Hüseynov deyib ki, çalışın uşaqlarınız və özünüz vitaminləri təbii meyvə-tərəvəz və göyərtidən alasınız, meyvə-tərəvəzi nə qədər artıq yesəniz də vitamin çoxluğu (hipervitaminoz) xəstəliyinə tutulmazsınız, amma çox vitamin həbləri qəbul etsəniz belə bir (hipervitaminoz) xəstəliyinə tutulmaqdan qaçmaq olmaz: "Onu da nəzərə çatdırım ki, apteklərimizdə satılan vitaminlərin əksəriyyəti təbii üsulla alınandır. Məsələn, C vitamini itburnudan hazırlanır. Xatırladım ki, biz hər gün itburnu meyvəsi yesək C vitaminin çoxluğu (hipervitaminoz) əmələ gəlməz, amma itburnudan alınmış vitamin C həblərini qəbul etsək mütləq fəsadları ortaya çıxacaqdır, çünki itburnudan alınmış vitamin C artıq Allahın yaratdığı vitamin mineral zəncirindən qırılmış bir vitamindir (yəni rafinə olunub başqa vitaminlər və minerallar zəncirindən qırılıb). Ona görə də biz istəməsək də hüceyrələrimizin içinə girib öz işini görəcəkdir, amma meyvələri nə qədər çox yesək də lazım olan qədər vitamini bədənimiz mənimsəyəcək və həzm etməkdə çətinliyi olmayacaqdır".

Fitoterapevtin sözlərinə görə, vitamin yumurtada, kərə yağında, kürüdə, balıq yağında, pendirdə olur. Amma yerkökü, çuğundur, balqabaq, gülümbahar, zəyərək, küncüt yağı, göyərti (əsasən ispanaq), portağal, mandarin, limon, çaytikanı meyvəsi kimi, sarı meyvələrdəki B karotin də bədənimizdə A vitaminə çevrilir: "Bu, göz üçün faydalıdır (gözün piqment təbəqəsinin quruluşunda iştirak edir), dəri, sümük, toxuma sağlamlığı üçün önəmlidir, uşaqlar üçün boyu uzatmağa kömək edir. Bədəndə immun sistem qurulmasında önəmli təsir göstərir, antioksidant təsiri vardır. A vitamini çatışmazlığı nəticəsində göz görməsi zəifləyir (axşamçağı hamı görsə də, A vitamini çatışmazlığında insanlar görə bilmir), dəri quruluğu, kəpəklənmə saçların nazikləşməsi və tökülməsi, dalaqda balacalaşma, sümük ağrıları, immunitet zəifliyi olur. Xərçəngə tutulma riski artır.

A vitamini çox olduqda isə dəri saralır (apelsin kimi çatlaq olur), beyində ödəm əmələ gəlir, baş ağrıları, halsızlıq, ürəkbulanma, başgicəllənmə, dodaqların quruması tez çatlama, hamiləlik vaxtı çətinliklər olur".

**Şəymən**

# Valideynlər də rüşfətə qarşı mübarizəyə qoşulmalıdır

## Məktəblərdə qanunsuz pul yığımının qarşısı alınmalıdır

**Sumqayıtda məktəblərdən birində müəllimə aid olduğu iddia edilən qalmaqallı səs yazısı yayılıb. Belə ki, səs yazısında məzun olan şagirdin valideynindən attestat verilməsi üçün pul istənilir. Üstəlik valideyndən təmir pulu adı ilə 7 manat da tələb olunur. "Şərq" "Gündəm.az"a istinadən bildirir ki, sözügedən səs yazısında digər şagirdlərdən də eyni məbləğdə pul tələb olunur.**



Hadisə ilə bağlı Abşeron-Xızı Regional Təhsil İdarəsindən bildirilib ki, səs yazısından xəbərləri var. Buna görə artıq araşdırmalara başlanılıb. Təhsil idarəsindən o da qeyd edilib ki, əgər fakt öz təsdiqini taparsa müəllim haqda qanuna müvafiq olaraq tədbir görüləcək.

Xatırladaq ki, bu kimi hallara məktəblərdə tez-tez rast gəlinir. Şagirdlərdən və valideynlərdən qanunsuz şəkildə tələb edilən fond pulu, təmir pulu və attestat üçün "şirinliklər" bəzi məktəblərdə hələ də davam edir.

**Məktəblərdə pul yığılması ilə bağlı istənilən tələbin qanunsuz olduğunu deyən Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov "Şərq"ə bildirib ki, bütün valideynlərdən xahiş edirik ki, belə halla qarşılaşdıqda dərhal Təhsil Nazirliyinin "qaynar xətt"inə müraciət etsinlər:** "Qanunsuz pul yığılması ilə bağlı faktları zaman-zaman eşidirik. Məsələ haqqında şəxsən birbaşa cənab nazirlə söhbət etmişəm. Bildirim ki, nazirlikdə heç kim bu vəziyyətə haqq qazandırmır. Əksinə, mübarizə aparmaq üçün əllərindən gələni edirlər. Təəssüflər olsun ki, məktəblərdə qanunsuz pul yığılması çox hallarda valideyn komitələrinin təşəbbüsü ilə baş verir. Məsələni araşdıran zaman üzə çıxır ki, valideyn komitəsindən bir neçə şəxs məktəb rəhbərliyi ilə əlbir olub bu cür qanunsuzluqlar edirlər. Hesab edirəm ki, valideynlər belə hallarla mübarizədən çəkinməməli və aktiv olmalıdırlar. Hər hansı imkanlı valideynlərin isə öz istəyi ilə məktəblərə ianə və köməklik etməsi normal haldır. Amma bütün bu proses qanuni şəkildə olmalıdır. Belə hallar burjuaziyanın təhsilə dəstəyidir.Lakin kimisə pul verməyə məcbur etmək olmaz. Belə qanunsuz işlərlə məşğul olan məktəb rəhbərlikləri ciddi şəkildə cəzalandırılmalıdır".

**Nihat**

# Anar Ağakişiyev Nobel mükafatı istəyir

**Bu gün məşhur stilist Anar Ağakişiyevin ad günüdür.**




Axşam.az xəbər verir ki, 38 yaşı tamam olan stilist bunla bağlı paylaşım edib. Anar yeni yaşandı gerçəkləşdirmək istədiyi ən böyük arzusunu bölüşüb:

"Ad günüm mübarək! Bu gün bir şey arzu etdim. Düşünürəm yeni yaşımda Nobel mükafatı almağın vaxtıdır. Mənə həyat bəxş etdiyi və belə zəhmətkeş insan etdiyi üçün anama təşəkkür edirəm".

# Başqa yolumuz yoxdur

## Data jurnalistikasını da öyrənməli, tətbiq etməliyik

**Jurnalistlərin bilik və bacarıqlarının daha da artırılması, ixtisaslaşması məqsədilə Azərbaycanda data jurnalistikasının təşviqi əsas hədəf müəyyən olunub. Xüsusilə data jurnalistikasının inkişafı istiqamətində qarşıda duran bir sıra planlar var.**

Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılovun sözlərinə görə, data jurnalistikasının inkişafı ilə bağlı xarici ölkələrdən peşəkar mütəxəssislər cəlb ediləcək və datanın cəmiyyətdə kommunikasiyasına dəstək veriləcək.

**İnformasiya texnologiyaları və yeni media eksperti Emin Hüseynzadə "Şərq" ə açıqlamasında ən azı 5-6 ildir data jurnalistikasının Azərbaycanda yayılması, təbliğatı, bu sahədə materialların yaradılması, universitet tələbələrinin, müxtəlif media quruluşlarının bu sahədə məlumatlandırılması işi ilə şəxsən məşğul olduğunu xatırladıb.**

Data jurnalistikası ilə ənənəvi media arasındakı fərqlərə toxunan mütəxəssis hesab edir ki, Azərbaycan jurnalistləri daha çox humanitar sahəyə fokuslandıqları üçün riyazi və texniki biliklərin tələb olunduğu data jurnalistikası onlara çətinlik törədir. Bu sahənin çətinliyi onun bir neçə etapdan keçməsi ilə bağlıdır: "Data jurnalistika dedikdə açıq verilənlərin toplanması və onların aydın məhsul kimi təmizlənib, emal olunub, analiz edildikdən sonra təqdim olunması başa düşülür.

Hər şeyin rəqəmsallaşdığı dünyada bu gün insanın hətta düşüncələrini də rəqəmsallaşdırıb məlumat bazasına daxil etmək olar. Data jurnalistikasının vəzifəsi də bu məlumatları sadələşdirib başa düşülən formada insanlara təqdim etməkdir. Data jurnalistikası sosial, iqtisadiyyat, təhsil, siyasət, elm sahələrində də açıq məlumatlardan istifadə etməklə, geniş tədqiqatlar aparmaqla məlumatların müqayisəsini apara və onların əsasında müvafiq infoqrafiya hazırlaya və beləliklə də onların ictimai əhəmiyyətini artıra bilər".



***"Gələcəyin jurnalistikası məhz bu olacaq, çünki cəmiyyət mürəkkəbləşdikcə ənənəvi janrlar ona diaqnoz qoymaqda çətinlik çəkir"***

Azərbaycanda data jurnalistikası ilə məşğul olan media orqanlarının minimal sayda olduğunu vurğulayan E.Hüseynzadə bildirib ki, "Əslində.com" saytı sırf bu sahə üzrə ixtisaslaşıb. Bir neçə saytlarda isə bu istiqamətdə müəyyən addımlar atılıb və yaxud atılmaqdadır: "Data jurnalistikasının inkişafı ilə bağlı xarici ölkələrdən peşəkar mütəxəssislər cəlb edilməsinə gəldikdə isə buna ehtiyac görmürəm. Bu sahədə ölkəmizdə peşəkar və ixtisaslı kadrlar var. Vizuallaşma ilə bağlı texniki alətlər, hətta Azərbaycan dilində materiallarımız belə hazırdır. Data analizi ilə bağlı həm media, həm də biznes sahəsində mütəxəssis yetişdirəcək məktəblərimiz belə var. Yəni xarici mütəxəssislər cəlb etməyə heç bir ehtiyac yoxdur. Elə yerli mütəxəssislərimizi təlimlərə cəlb etməklə Azərbaycanda data jurnalistikasının inkişafına nail olmaq mümkündür. Resurs baxımından data jurnalistikası bütün medialar üçün yararlı olmasa da dövrün tələbatıdır.

Xatırladım ki, biz Azərbaycan universitetlərində data jurnalistlərin yetişdirilməsi üçün ayrıca təlim modul yazmışıq. Bu modulda proqram, material, sual-cavablar var. Universitetlər tədris edə bilərlər".

**"Azvision.az" saytının baş redaktoru Vüsal Məmmədov isə hesab edir ki, bizim istifadə etdiyimiz ənənəvi janrlarla müqayisədə data jurnalistika daha çətin, amma eyni zamanda, əsaslı və vacib sahədir:** "Bu, jurnalistika ilə dəqiq elmlərin qovşağında yaranan sahədir. Gələcəyin jurnalistikası məhz bu olacaq, çünki cəmiyyət mürəkkəbləşdikcə ənənəvi janrlar ona diaqnoz qoymaqda çətinlik çəkir. Məsələn, Mirzə Cəlilə cəmiyyətin çatışmazlığını, əyər-əskiklərini göstərmək üçün publisistika bəs edirdisə, artıq bu, kifayət deyil. İndi real vəziyyəti görə və göstərə bilmək üçün statistikaya, qrafiklərə, diaqramlara, infoqrafiklərə ehtiyac var. Bu olmazsa, biz XXI əsrin jurnalistikasına adlaya bilməyəcəyik. Mürəkkəb postsənaye cəmiyyəti mürəkkəb də metodlar tələb edir. Ona görə də başqa yolumuz yoxdur. Bu metodları öyrənməli, tətbiq etməli və öyrətməliyik. Ya da qələmimizi cibimizə qoymalıyıq. Bu arada, jurnalistika getdikcə daha çox komanda işinə çevrilir, çünki data jurnalistikada tək müəllifdən səs çıxmayacaq".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2018



## Amerikalılar bu addımı rəğbətlə qarşıladılar

Trampın keçmiş həyat yoldaşının dəfn mərasiminə Melaniya da qatılıb

**ABŞ-ın sabiq prezidenti Donald Tramp keçmiş həyat yoldaşı İvana Trampı son mənzilə hazırkı həyat yoldaşı Melaniya Trampla birlikdə yola salıb.**

D.Trampın keçmiş həyat yoldaşının dəfn mərasiminə qatılması, həm də hazırkı həyat yoldaşının dəfndə iştirakını amerikalılar rəğbətlə qarşılayıb. "NTV.com.tr"də yer alan məlumatda bildirilir ki, mərhum İvana Trampla Donald Trampın 3 övladı var. İvana Tramp üçün Nyu-Yorkun St.Vincent Ferrer Kilsəsində dəfn mərasimi keçirilib. Hazırkı həyat yoldaşı Melaniya Trampdan əlavə, dəfn mərasimində İvananın Donald Trampdan olan övladları İvanka, Donald Jr. və Eric Tramp və həyat yoldaşları, həmçinin Melaniya və Donald Tramp cütlüyünün oğlu Barron da iştirak edib. Tramp ailəsi kilsə pillələrinin başında fotokameralar önünə çıxıb və fotolarının çəkilməsinə etiraz etməyiblər. Donald Trampın keçmiş həyat yoldaşı İvana çex əsilli olub. 1977-ci ildə evləniblər və 1992-ci ildə ayrılıblar. İvana Tramp iş qadını olaraq tanınıb, zinət əşyaları, geyimlər, kosmetik vasitələr satışı sahəsində sahibkar qadın kimi fəaliyyət göstərib. Donald Tramp keçmiş həyat yoldaşı üçün "ilhamverici bir həyat sürən, gözəl, füsunkar bir qadın idi. Qüruru və sevinci 3 övladı idi. Hamımız onunla qürur duyduqca, o da övladlarıyla qürur duyurdu. Hüzur içində yat, İvana!" deyib.

Məlahət

## Virusla mübarizə çətinləşəcək

2023-cü ilin qışına qədər olan dövr ağır keçəcək



**Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Dr. Hans Kluqe bildirib ki, COVİD-19-a yoluxmaların artması nəticəsində payızdan etibarən virusla mübarizə çətinləşə bilər.**

Medicina.az xəbər verir ki. keçən həftə 3 milyona yaxın yeni yoluxma sayının qeydə alındığını deyən ÜST rəsmisi əlavə edib ki, xəstəliklərin artması bu şəkildə davam edərsə, payızdan başlayaraq 2023-cü ilin qışına qədər olan dövr ağır keçəcək.

"Əvvəlki yay və payızla fərqimiz olmayacaq. Omikronun BA.2 və BA.5 alt variantlarının təsiri altında COVİD-19 daha sürətlə yayılır" , - Hans Lkuqe bildirib.

## Məşhur cütlük də tətilə çıxdı, keyifləri də yerində...



**Türkiyənin məşhur aktrisası Eda Ece və sevgilisi milli basketbolçu Buğrahan Tuncer Marmarisdə tətildədir.**

**Lent.az bildirir ki, gözdən uzaq münasibət yaşamağa üstünlük verən cütlük ötən gün Marmarisdə qayıq tətilində görüntülənib.**

**Eda Ece keyifli tətilinə sevgilisi ilə "Seabob" hazırlamağa başlayıb. "Seabob" ləzzətindən sonra məşhur aktrisa bu dəfə fasiləsiz dəniz velosipedinə minib.**

**Ece qayıqların kəndirlərindən sürətlə keçərək dəniz velosipedində ustalığını nümayiş etdirdi.**

## Şaftalı ürəyə xeyirlidir

Qabığını soyub yeyin



**Müntəzəm olaraq mövsümündə təzə şaftalı yemək immun sistemi möhkəmləndirir, dərini bərpa edir. Bakupost.az xəbər verir ki, bu barədə həkim Yelena Solomatina məlumat verib.**

**"Şaftalıda olan lif və pektinlər, bütün sistem və orqanların işinə müsbət təsir edir. Şaftalıda çox miqdarda beta-karotin var, o gözlərə təsir edir. Eləcə də şaftalı bağırsaq mikroflorasını yaxşılaşdırır. Onun lifləri tez həll olub əriyir, bağırsaqlardan ağır metal və duzları çıxarır. Qanda xolesterini salır, ürəyin normal işini bərpa edir". Həkim məsləhət görür ki, şaftalının qabığını soyub yeyin. "Ola bilər qabığında yad maddələr, pestisidlər olsun. Çox şirin şaftalıları şəkər xəstələri yeməsin. Eləcə də mədəsində yara olanlara olmaz".**



# Dünyanın ən güclü pasportu Yaponiyaya məxsusdur

Ən zəif pasportlara malik ölkələr isə Əfqanıstan, Şimali Koreya, Suriya və başqa ölkələrdir

**Londonda fəaliyyət göstərən "Henley & Partners" viza firması dünyanın ən güclü və ən zəif pasportlarını sıralayıb. Sıralama vizasız gedişgəlişin mümkün olduğu ölkələrin sayına görə təyin edilib.**

Hansı ölkənin vətəndaşları pasportları ilə daha çox xarici ölkəyə vizasız gedib-gəlmək imkanına malikdirsə, o ölkələr siyahıda ön sıralardadır. "NTV.com.tr" xəbər verir ki, viza firmasının belə bir siyahı tərtib etməkdə məqsədi dünya əhalisinə daha asan, əlçatan səfərlər, səyahətlər imkanı yaradan dövlətləri tanıtmaq və digərlərini onlardan örnək almağa çağırmaqdır. Firma hesab edir ki, dünya hamının ümumi evidir və sərhədlər nə qədər açıq olsa, insanlar arasında ünsiyyət daha asan yaranar və dünya əhalisi bir-birinə yardım edər. Yeni hesabata görə, Asiyanın 3 dövləti vətəndaşlarına digər dövlətlərin vətəndaşlarından daha artıq səyahət azadlığı verir. Yaponiya 193 ölkəyə vizasız gediş-gəliş hüququ ilə ilk sıradadır, onu Sinqapur və Cənubi Koreya "təqib edir" (192 ölkə). "Ən güclü pasportlar" siyahısında ilk onluqda Almaniya, İspaniya, Finlandiya, İtaliya əsasən Avropa ölkələri, Yeni Zelandiya, bir neçə Şərqi Avropa ölkəsidir (Litva, Macarıstan, Polşa). Bu ölkələr vətəndaşlarına 182-190 dövlətə vizasız gediş-gəliş imkanı verir. Ən zəif pasportlara malik ölkələr siyahısında isə sonuncu yerdə gözlənildiyi kimi Əfqanıstandır - cəmi 27 ölkə. Bu siyahıya Şimali Koreya 40 ölkə ilə "liderlik edir". Siyahıda Nepal, Somali, Yəmən kimi Afrika ölkələri, eləcə də Pakistan, Suriya, İraq və Fələstin də var (29-38 ölkə). Siyahıda orta göstəricilərə malik dövlətlərin də adı keçir. Türkiyə 110 ölkəyə vizasız gediş-gəliş hüququ verməklə 54-cü sıradadır. Rusiya isə 50-ci sırada.

Məlahət



# Ən çox qazanan ulduzlar...

Film sıralamasında Maherşala Əli liderdir

**Serial və filmlərdən ən çox qazanc əldə edən dünya şöhrətli ulduzların adları açıqlanıb. "Varieti" tərəfindən dərc edilən siyahıda Maherşala Əli seriallar reytinqində 1.3 milyon dollar qazanaraq birinci yeri tutub. Kevin Costner isə "Yellowstone" Paramount Network" serialı ilə 1.3 milyon dollarla ikinci yerdədir.**

Sonrakı sıralama isə aşağıdakı kimidir:

Michael Keaton "Dopesick" (Hulu) / 1 milyon dollar

Elizabeth Olsen "Love and Death" (HBO Max) / 875 bin dollar

David Harbour "Stranger Things" (Netflix) / 450 bin dollar

Winona Ryder "Stranger Things" (Netflix) / 450 bin dollar

Tom Hopper, David Casta?eda, Emmy Raver-Lampman, Robert Sheehan, Aidan Gallagher and Justin H. Min "The Umbrella Academy" (Netflix) / 200 min dollar

Tom Cuise film kateqoriyasında isə birinci yeri tutub. O, "Top Gun: Maverick" filmi ilə 100 milyon dollar qazanıb. Film kateqoriyasında Tom Cuisedən sonra Uill Smit "Emanciaption" filmi ilə 35 milyon qazanıb. Sonrakı sıralama isə aşağıdakı kimidir:

Leonardo DiCaprio "Killers of the Flower Moon" / 30 milyon dollar

Brad Pitt "Formula 1 Drama" / 30 milyon dollar

Dwayne Johnson "Black Adam" / 22.5 milyon dollar

Will Ferrel "Spirited" / 20 milyon dollar

Chris Hemworth "Extraction 2" / 20 milyon dollar

Vin Diesel "Hızlı ve Öfkeli 10" / 20 milyon dollar

Tom Hardy "Venom 3" / 20 milyon dollar

Joaquin Phoenix "Joker 2" / 20 milyon dollar

Ryan Reynolds "Spirited" / 20 milyon dollar

Denzel Vashington "The Equalizer 3" / 20 milyon dollar

Jason Mamoa "Aquaman and the Last Kingdom" / 15 milyon dollar

Eddie Murphy "Beverly Hills Cop 4" / 15 milyon dollar

Chris Pine "Star Trek" devam filmi / 13 milyon dollar

Steve Carell "Minions: The Rise of Gru" / 12.5 milyon dollar

Ryan Gosling "Barbie" / 12.5 milyon dollar

Margot Robbie "Barbie" / 12.5 milyon dollar

Millie Bobby Brown "Enola Holmes 2" / 10 milyon dollar

Timoth?e Chalamet "Wonka" / 9 milyon dollar

Çimnaz Şahlar

## Hamı üzgündür...

Dünyanın ən yaşlı pandası 35 yaşında öldü



**Honq-Konqun dünyada məşhur "Ocean Park" heyvanxanasında 1999-cu ildən bəslənən An-An adlı panda vəfat edib. Heyvanxanadan verilən açıqlamada pandanın son həftələr ərzində az qidalandığı və səhhətində problemlər yarandığı bildirilib.**

"Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, pandanı müayinə edən heyvanxana həkimi onun artıq çox qocaldığını və həyatını itirmək üzrə olduğunu deyib. Panda əziyyət çəkməsin deyə, otonazi (süni ölüm) tətbiq edilib. Qeyd edilir ki, An-An dünyanın ən yaşlı erkək pandası idi. Onu dişi tayı - Jia-Jia ilə birlikdə Honk-Konq heyvanxanasına Çin hökuməti hədiyyə edibmiş. Dişi panda 2016-cı ildə, 38 yaşında vəfat edib. Erkək panda dişidən 8 il sonra. Panda üçün 35 il ömür sürmək insan ömrü ilə müqayisədə 105 il deməkdir. Pandanın 1 ili insan həyatının 3 ilinə bərabərdir. Təbiətdə 20 ilədək ömür sürə bilən pandalar özəl qulluq göstərildikdə daha artıq yaşaya bilirlər. Park rəsmiləri An-An pandasının vəfatıyla bağlı üzüntü yaşadıqlarını bildirib: "Ocean Park" An-Anın itkisindən dərin üzüntü keçirir. An-An son həftələrdə qatı qidaların qəbulundan imtina etmişdi, yalnız su və elektroid içkiləri qəbul edirdi. Sonra bunlardan imtina etdi və heç bir qida qəbul etmədi. An-An bizə inidiyədək daim səmimi, sevincli anlar yaşadıb. Zəkası və oyunculuğunun çox həsrətini çəkəcəyik. An-An ailəmizin bir üzvü idi. Yerli əhali ilə də parkı ziyarətə gələn turistlərlə də dostluq bağları qururdu. Onun üçün çox darıxacağıq". Qeyd edək ki, "Ocean Park"da An-Anın böyük fotosu olan lövhə, lövhə önünə isə çiçək dəstəsi qoyulub.

Məlahət

## Uğursuz əməliyyat...

Cərrah xəstəni səhhəti pisləşdiyinə görə iki ay girov saxladı





**Braziliyada özəl xəstəxananın ortağı olan plastik cərrah qarın gərmə əməliyyatı keçirən xəstəsini səhhəti pisləşdikdən sonra girov götürüb. Bolivar Guerrero Silva adlı həkim həbs olunub. Qadının müalicəsi isə davam etdirilir.**

Braziliya mətbuatında yer alan xəbərlərə görə, Rio de Jenairo şəhərində plastik cərrah Bolivar Guerrero Silva xəstəsini iki ay ərzində xəstəxanada yeni tikilmiş kamerada girov saxlayıb. Qarın gərmə əməliyyatı uğursuzluqla nəticələndikdən sonra Silvanın belə bir addım atdığı bildirilir.

Bununla belə, əyalət məhkəməsi 20 yaşlı Daiana Chaves Cavalcanti adlı qadın xəstənin müalicəsi üçün plastik əməliyyat etdirdiyi Santa Branca xəstəxanasının hesablarından 198.000 BRL (təxminən 640 min lirə) bloklanmasına qərar verib.

Xəstənin vəkili Ornelio Mota Rocha, hələ də müalicə olunan gənc qadını başqa xəstəxanaya köçürmək üçün qanuni addımlar atdığını, lakin nəticə vermədiyini söyləyib. Mövzu ilə bağlı xəstəxanadan da açıqlama verilib. İttihamların "əsassız" olduğu və Bolivarın xəstəxananın ortağı olmadığı iddia edilib.

Turan